**Bank Xidmətlərinin Göstərilməsi Haqqında**
**Müqavilənin Ümumi Şərtləri**

*09.04.2021-ci il tarixdən etibarlıdır.*

## 1. ƏSAS ANLAYIŞLAR

1.1. **"3D secure"** - real vaxt rejimində internet üzərindən aparılan ödənişlərin avtorizasiyası üzrə Bank tərəfindən Telefona SMS ilə göndərilən Birdəfəlik Şifrə ilə Kart İstifadəçisinin eyniləşdirilməsidir.

1.2. **Aksept –**Müştərinin Banka təqdim etdiyi Ərizəni Bankın Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra "Mülki Məcəllə") 409.1-ci maddəsinə uyğun olaraq qeyd-şərtsiz qəbul etməsi barədə həmin Ərizədə imza etməklə ifadə olunan yazılı cavabıdır.

1.3. **Analoq İmza** –Müqavilə əsasında Bank tərəfindən Müştəriyə təqdim edilən və myAccess Xidmətindən istifadə etmək imkanı verən Login, Müvəqqəti Şifrə, Şifrə və Birdəfəlik Şifrə, həmçinin digər Bank xidmət(lər)indən istifadə zamanı Ümumi Şərtlərdə razılaşdırılmış qaydada Telefondan alınan və Telefona göndərilən SMS və ya zəngdir. Analoq İmza Müştərinin şəxsi imzasının analoqu olmaqla myAccess Xidmətindən, habelə digər Bank Xidmətindən istifadə edərkən Müştərini eyniləşdirməyə imkan verir və Analoq imza ilə təsdiqlənmiş Elektron Ödəniş Tapşırığı, Elektron Sifariş və istənilən digər sənəd, o cümlədən Ərizə(lər) Müştəri tərəfindən kağız üzərində yazılı formada və əl ilə şəxsən imzaladığı sənəd ilə eyni hüquqi qüvvəyə malikdir.

1.4. **Asan İmza** - Azərbaycan Respublikası Vergilər Nazirliyi ASAN Sertifikat Xidmətlər Mərkəzi tərəfindən verilmiş elektron imza üçün sertifikat əsasında eyniləşdirilən Müştərinin malik olduğu elektron imzadır. Asan İmza Müştərinin şəxsi imzasının analoqu olmaqla myAccess Xidmətindən, habelə digər Bank Xidmətindən istifadə edərkən Müştərini eyniləşdirməyə imkan verir və Asan İmza ilə təsdiqlənmiş Elektron Ödəniş Tapşırığı, Elektron Sifariş və istənilən digər sənəd, o cümlədən Ərizə(lər) Müştəri tərəfindən kağız üzərində yazılı formada və əl ilə şəxsən imzaladığı sənəd ilə eyni hüquqi qüvvəyə malikdir.

1.5. **"Avtomatik bərpa" Prolonqasiya Seçimi –** Əmanət Hesabı Müqaviləsinin eyni müddətə uzadılması barədə Müştərinin Prolonqasiya Seçimidir.

1.6. **Avtorizasiya** – Kartdan istifadə edilməklə Əməliyyatların aparılması üçün Emitentdən və ya onun xidmət olunduğu Kart Təşkilatından icazənin alınmasıdır.

1.7. **Bank –** Dövlət qeydiyyat nömrəsi (VÖEN) 1400057421 olan, AZ1065 Bakı şəhəri, Yasamal rayonu, Məhəllə 1033, Tbilisi prospekti 3 ünvanı üzrə dövlət qeydiyyatından keçmiş və həmin ünvanda Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 245 saylı bank lisenziyası əsasında fəaliyyət göstərən "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti və onun adından çıxış edən filialıdır. Bankın rekvizitləri: Kod 505000, SWIFT: ACABAZ22, Azərbaycan Respublikasının Mərkəzi Bankındakı Müxbir Hesabları: AZ10NABZ01350100000000056944(AZN), AZ29NABZ01350200000000056840(ABŞ dolları), AZ55NABZ01350200000000056954(AVRO).

1.8. **Bank sirri -** Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 967-ci maddəsinə müvafiq olaraq Bankın sirrinə təminat verdiyi bank hesabı, hesab üzrə əməliyyatlar və qalıqlar, habelə Müştəri haqqında məlumatlar, o cümlədən Müştərinin adı, ünvanı haqqında məlumatlar, Müştərinin Bankın saxlancında əmlakının mövcudluğu, bu cür əmlakın sahibləri, xarakteri və

dəyəri haqqında məlumatlardır.

1.9. **Bank Xidməti –** Müqavilənin tərkib hissəsi olan, Müştəriyə Ərizə əsasında təqdim edilən aşağıdakı bank xidmətləridir:

1.9.1. Cari Hesab(lar)ın, Əmanət Hesab(lar)ının açılması və bank hesab(lar)ına xidmət göstərilməsi;

1.9.2. Əmanətlərin qəbulu;

1.9.3. Kart Hesab(lar)ının açılması, Kart(lar)ın emissiyası və on(lar)a xidmət göstərilməsi;

1.9.4. internet bankçılıq xidmətləri (myAccess Xidməti);

1.9.5. icrası Əmanət ilə təmin edilən Kreditlərin verilməsi;

1.9.6. pərakəndə (nağd) Kreditlərin verilməsi.

1.10. **Bank Xidmətlərinin Göstərilməsi haqqında Müqavilənin Ümumi Şərtləri (**bundan sonra "Ümumi Şərtlər"**) –** Müqavilənin rəsmiləşdirilməsi qaydasını, Bank Xidmət(lər)inin təqdim edilməsi üsulunu, onların həyata keçirilməsi və istifadəsi, habelə Tərəflərin hüquq və vəzifələri ilə bağlı ümumi şərtləri müəyyən edən, Mülki Məcəllənin 408.2-ci maddəsinə əsasən ofertaya dəvət olan və Bankın İnternet Səhifəsində yerləşdirilmiş hazırkı şərtlərdir.

1.11. **Banka aidiyyəti olan şəxs** - Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1-ci maddəsində göstərilən şəxslər, habelə bankın nizamnamə kapitalında iştirak payından asılı olmayaraq müqavilə əsasında bankın qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs, bankın Audit Komitəsinin üzvləri, daxili audit bölməsinin əməkdaşları, qərarların qəbul edilməsində iştirak edən bankın digər əməkdaşları, bankın və onun filiallarının baş mühasibləri, həmin şəxslərlə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü maddəsində nəzərdə tutulmuş qohumluq əlaqələri olan şəxslər, banka aidiyyəti şəxs adından hərəkət etməyə hüququ olan şəxslər, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.6-cı və 49-1.1.7-ci maddələrində göstərilən şəxslərin ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxslər, bazar şərtlərindən əhəmiyyətli dərəcədə fərqlənən və açıq-aşkar iqtisadi əsasları olmayan əməliyyatların aparıldığı şəxslərdir.

1.12. **Bankın İnternet Səhifəsi** - Bankın www.accessbank.az ünvanlı veb səhifəsidir.

1.13. **Bankomat** – ödənişlərin aparılması, nağd pul vəsaitinin verilməsi və qəbulu, habelə digər bank xidmətlərindən istifadə edilməsi üçün nəzərdə tutulmuş proqram-texniki kompleksdir.

1.14. **"Bərpa olunmayan" Prolonqasiya Seçimi -** Əmanət Hesabı Müqaviləsinin avtomatik eyni müddətə uzadılmaması barədə Müştərinin Prolonqasiya Seçimidir.

1.15. **Birdəfəlik Şifrə (və yaxud "SMS Kod")** - myAccess Xidmətindən istifadə zamanı hər bir Elektron Ödəniş Tapşırığını, Elektron Sifarişi və istənilən digər sənədi təsdiq etməkdən, habelə digər Bank Xidmətindən istifadə zamanı autentifikasiyanın həyata keçirilməsindən ötrü yalnız bir dəfə istifadə üçün nəzərdə tutulmuş, Bankın Telefona SMS vasitəsilə göndərdiyi simvolların unikal ardıcıllığıdır.

1.16. **Bitmə Tarixi** –Əmanətin Müştəriyə qaytarılmalı olduğu tarix.

1.17. **Cari Hesab** – Müştəri üçün daxil olan pul vəsaitini qəbul etmək və hesaba salmaq, hesabdan pul vəsaitlərini köçürmək və vermək, habelə hesab üzrə digər əməliyyatların aparılması üçün Müştəriyə açılmış bank hesabıdır.

1.18. **Cari Hesab Müqaviləsi** – Ərizənin Bank tərəfindən Aksepti ilə rəsmiləşdirilən Müqavilədir. Cari Hesab Müqaviləsinə görə Bank Müştəriyə (hesab sahibinə) Cari Hesab açmağı, həmin hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair Müştərinin sərəncamlarını Qanunvericilikdə və bu Müqavilədə razılaşdırılmış şərtlərlə yerinə yetirməyi öhdəsinə götürür. Müştəri Cari Hesab Müqaviləsi bağlamaqla eyni zamanda myAccess Xidmətinin şərtlərini də qəbul edir.

1.19. **Çarcbek (ingiliscə "Chargeback") –** Kart Hesabı üzrə həyata keçən və Müştərinin xidmət göstərdiyi şəxsin razılaşmadığı hər hansı əməliyyata görə Bankın Kart təşkilatına etməli olduğu geri ödəmə.

1.20. **Ekvayer** – Ekvayrinq xidmətini həyata keçirən hüquqi şəxsdir.

1.21. **Ekvayrinq** – təsərrüfat subyekti və ya dövlət orqanı ilə bağlanan müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı Müştərilərlə hesablaşmaların aparılması və ya vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqların ödənilməsi və ya Kart İstifadəçisinə nağd pul vəsaitinin verilməsi üzrə göstərilən xidmətdir.

1.22. **Emitent** – Kartların emissiyasını həyata keçirən, Kart İstifadəçilərinə xidmət göstərilməsini, Kart Əməliyyat(lar)ının avtorizasiyasını (özü və ya Kart Təşkilatı tərəfindən) və aparılmış Əməliyyat(lar)ın dəyərinin Ekvayerə ödənilməsini təmin edən Bankdır.

1.23. **Elektron Ödəniş Tapşırığı** – Müştərinin bank hesabından maliyyə vəsaitinin köçürülməsi haqqında Müştərinin myAccess Xidməti vasitəsi ilə Banka elektron şəkildə təqdim və təsdiq etdiyi elektron ödəniş tapşırığıdır. Elektron Ödəniş Tapşırığı kağız daşıyıcısında formalaşdırılaraq Müştəri tərəfindən şəxsən imzalanan ödəniş tapşırığı ilə eyni hüquqi qüvvəyə malikdir və Müştəri üçün eyni hüquqi nəticələr yaradır.

1.24. **Elektron Sifariş -** Bank Xidmətlərini sifariş etmək üçün Müştərinin myAccess Xidməti vasitəsilə Banka elektron şəkildə təqdim etdiyi müraciətdir. Elektron Sifariş kağız daşıyıcısında formalaşdırılaraq Müştəri tərəfindən şəxsən imzalanan sənəd ilə eyni hüquqi qüvvəyə malikdir və Müştəri üçün eyni hüquqi nəticələr yaradır.

1.25. **Eyniləşdirmə** – myAccess Xidmətindən, habelə digər Bank Xidmətindən istifadə zamanı Müştərini Analoq İmza və ya Asan İmza əsasında eyniləşdirmə üsuludur.

1.26. **Əlavə Kart** – Kartla ümumi Kart Hesabına malik olan əlavə Kart (lar)dır.

1.27. **Əlverişli Əmanət –** Müştəri tərəfindən istənilən zaman artırıla və ya azaldıla bilən müddətsiz Əmanətdir.

1.28. **Əmanət** – Bankın Müştəri üçün və ya Müştəridən milli və ya xarici valyutada qəbul etdiyi və hesablanmış faizlər də daxil olmaqla Qanunvericiliyə və ya Əmanət Hesabı Müqaviləsinə əsasən geri ödəməli olduğu pul vəsaitləridir.

1.29. **Əmanətin Açılma Tarixi** – Əmanətin Müştərinin Cari Hesabından Əmanət Hesabına köçürüldüyü tarixdir.

1.30. **Əmanət Hesabı** – Əmanət Hesabı Müqaviləsinə əsasən Müştərinin pul vəsaitlərinin Əmanətə cəlb edilməsi, Əmanətin uçotu və Əmanət Faiz(lər)inin hesablanması üçün açılmış bank hesabıdır.

1.31. **Əmanət Hesabı Müqaviləsi –** Ərizə və Ümumi Şərtlər əsasında rəsmiləşdirilən Müqavilədir. Əmanət Hesabı Müqaviləsinə görə Bank Müştəridən (əmanətçidən) və ya Müştəri üçün daxil olmuş Əmanəti qəbul edərək Müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada Əmanət məbləğini Müştəriyə qaytarmağı və onun üçün Müştəriyə Əmanət Faizi ödəməyi öhdəsinə götürür. Müştəri Əmanət Hesabı Müqaviləsini bağlamaqla eyni zamanda myAccess Xidmətinin Şərtlərini də qəbul edir.

1.32. **Əmanətin Faizi** – Əmanətin Faiz Dərəcəsinə uyğun olaraq Əmanət Hesabında olan pul vəsaiti üçün hesablanan pul məbləğidir.

1.33. **Əmanətin Faiz Dərəcəsi -** Əmanət Hesabında olan pul vəsaiti üçün Əmanət Faizinin hesablandığı illik faiz dərəcəsidir. Əmanətin Faiz Dərəcəsi Ərizədə razılaşdırılır.

1.34. **Əmanət Faizlərinin Hesablanması Cədvəli –** Müştəri və Bank arasında razılaşdırılmış Əmanətin Faiz Dərəcəsinin qrafikidir. Əmanət Faizlərinin Hesablanması Cədvəli Yüksələn Əmanət üzrə Əmanət Hesabı Müqaviləsinin ayrılmaz tərkib hissəsidir.

1.35. **Əmanətin Müddəti** – Müştərinin Əmanəti Banka yerləşdirdiyi müddətdir. Əmanət müddəti Ərizədə razılaşdırılır.

1.36. **Əmanət Planı -** Müştəri və Bank arasında razılaşdırılmış Əmanətin Bankda yerləşdirilməsi qrafikidir. Əmanət Planı Yığım Əmanəti üzrə Əmanət Hesabı Müqaviləsinin ayrılmaz tərkib hissəsidir.

1.37. **Əməliyyat -** bank hesabları üzrə aparılan əməliyyat(lar)dır.

1.38. **Əməliyyat Limitləri** – Cari Hesab, myAccess Xidməti və Karta dair xidmətlərdən istifadə zamanı aparılan Əməliyyat(lar)ın məbləğlərinin maksimal həddinin Qanunvericilikdə və ya Bank tərəfindən müəyyən edilmiş limitidir.

1.39. **Əməliyyatların Reyestri** – Bankın Prosessinq Şirkətindən aldığı və müəyyən müddət ərzində Kartlardan istifadə etməklə aparılan Əməliyyat(lar) haqqında məlumatları əks etdirən sənəddir.

1.40. **Əməliyyat Tarixi** – Kartdan istifadə etməklə Kart Hesabı üzərində sərəncam verildiyi tarixdir.

1.41. **Əməliyyatın İşlənmə Tarixi** – Bankın Prosessinq Şirkətindən aldığı və müəyyən müddət ərzində Kartdan istifadə etməklə aparılan Əməliyyat(lar)ın Bankın sistemində işlənilməsi tarixidir.

1.42. **Ərizə** (“**Müqavilənin xüsusi şərtləri**”) – Mülki Məcəllənin 408.1-ci və 408.3-cü maddələrinə uyğun olaraq Müştərinin Banka təqdim etdiyi ayrı-ayrı Bank Xidmətlərindən istifadənin xüsusi (mühüm) şərtlərini özündə əks etdirən müqavilə bağlanması haqqında ofertadır və Banka təqdim edildiyi andan Müştərini bağlı edir. Ərizə bir və ya bir neçə Bank Xidmətindən istifadə üçün eyni vaxtda və ya müxtəlif vaxtlarda Banka təqdim edilə bilər. Ərizə Banka 2 (iki) nüsxədə təqdim edilir və Bankın Aksepti ilə onun 1 (bir) nüsxəsi Müştəriyə verilir. Pərakəndə kredit barədə Müqavilə üzrə Kredit Limiti çərçivəsində verilən Kredit(lər)in xüsusi şərtləri ilk dəfə Ərizə, növbəti hər dəfə Ərizə, SMS və ya myAccess Xidməti vasitəsilə razılaşdırılır.

1.43. **Girov Predmeti** – Kredit və Girov barədə qarışıq Müqavilə üzrə borclunun öhdəliklərinin icrasını təmin edən Əmanətdir.

1.44. **Hesabdan Çıxarış** – Müştəri tərəfindən bank hesabından istifadə etməklə aparılmış Əməliyyat(lar) barədə hesabatdır.

1.45. **Hədəf Əmanət –** İlkin Əmanət və Növbəti Əmanətin birlikdə ifadəsi.

1.46. **İlkin Əmanət –** Yığım Əmanəti üzrə Müştərinin ilkin olaraq Bankda yerləşdirməli olduğu Əmanət.

1.47. **İstifadəçi Rolu -** Müştərinin myAccess Xidmətindən istifadə imkanlarını göstərir. Müştərinin Ərizəsinə əsasən, habelə myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyat zamanı ona Aktiv, Passiv və ya Xüsusi İstifadəçi Rolu verilə bilər. Aktiv İstifadəçi Rolu olan Müştəri myAccess Xidmətinin bütün imkanlarından yararlana bilər. Passiv İstifadəçi Rolu olan Müştəri myAccess Xidməti vasitəsi ilə yalnız məhsullara baxış həyata keçirə bilər. Xüsusi Istifadəçi Rolu olan Müştəri myAccess Xidməti vasitəsi ilə məhsullara baxış imkanından əlavə Müştərinin Ərizəsində qeyd olunmuş, habelə myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyat zamanı bəyan edilmiş bir və ya bir neçə Əməliyyat növünü aparmaq hüququna malikdir.

1.48. **İş Günü -** Azərbaycan Respublikasında bankların xidmət göstərmək üçün açıq olduğu günlər.

1.49. **Kart Hesabı** – Kart vasitəsilə həyata keçirilən Əməliyyat(lar)ın uçotunun aparılması üçün Bankda Müştəri üçün açılan bank hesabıdır.

1.50. **Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilə** – Ərizə və Ümumi Şərtlər əsasında rəsmiləşdirilən, Kart Hesabının açılması, həmin Kart Hesabı üzrə Müştərinin

sifarişinə əsasən Kart(lar)ın verilməsi və həmin Kart(lar)a xidmət göstərilməsi, habelə myAccess Xidmətindən istifadə barədə Müqavilədir. Müştəri Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilə bağlamaqla eyni zamanda myAccess Xidmətinin Şərtlərini də qəbul edir.

1.51. **Kart İstifadəçisi** – Kartdan istifadə etməklə Kart Hesabı üzrə sərəncam vermək hüququ olan Müştəri və Əlavə Kart(lar)ın sahib(lər)idir.

1.52. **Kartın bloklaşdırılması** – Kart vasitəsilə Əməliyyat(lar)ın həyata keçirilməsinin dayandırılmasıdır.

1.53. **Kartların Emissiyası** (və yaxud "Emissiya") – Emitent tərəfindən Kart(lar)ın dövriyyəyə buraxılmasıdır.

1.54. **Kart Təşkilatı -** Kartlar vasitəsilə aparılmış Əməliyyat(lar) haqqında məlumatların ötürülməsi, toplanması, emalı və klirinqi, həmçinin Kartların Emissiyasına və Ekvayrinqinə texniki xidmət göstərilməsini həyata keçirən xidmət mərkəzi (prosessinq fəaliyyətini həyata keçirən banklar və digər hüquqi şəxslər) və ya beynəlxalq Kart Təşkilatıdır.

1.55. **Kredit** – Bankın fiziki şəxs olan Müştəriyə Kredit və Girov barədə qarışıq Müqaviləyə və ya Pərakəndə (nağd) kredit barədə Müqaviləyə əsasən qaytarılmaq, müəyyən müddətə və faizlər (Komisyon haqlar) ödənilmək şərti ilə verdiyi borc pul vəsaitidir.

1.56. **Kredit Faizi –** Kreditdən istifadə üçün Kreditin Faiz Dərəcəsi əsasında hesablanan pul (faiz) məbləğidir.

1.57. **Kreditin Faiz Dərəcəsi -** Kredit Faizinin hesablanması üçün Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Ərizədə, Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə isə hər dəfə Ərizə, SMS və ya myAccess vasitəsilə razılaşdırılmış aylıq faiz dərəcəsidir.

1.58. **Kredit Limiti** – Pərakəndə (nağd) kredit barədə Müqavilə əsasında Bank tərəfindən hissələrlə verilən Kreditlər üzrə Müştərinin Kredit Limitinin Müddəti ərzində istənilən ana Kredit Faizləri nəzərə alınmadan maksimum borclanma həddidir. Müştəri Kredit Limiti çərçivəsində dəfələrlə Kredit götürə bilər.

1.59. **Kreditin Maksimum Faiz Dərəcəsi** – Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Ərizə ilə müəyyənləşdirilmiş Kredit Faizinin hesablanması üçün maksimum aylıq faiz dərəcəsidir.

1.60. **Kredit Məbləği** – Kreditin Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Ərizə, Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə isə hər dəfə SMS və ya myAccess vasitəsilə razılaşdırılmış əsas məbləğidir.

1.61. **Kredit Limitinin Müddəti** – Müştəriyə Kreditlərin verilməsinin Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Ərizə ilə müəyyənləşdirilmiş maksimum müddətidir.

1.62. **Kreditin Müddəti** – Kreditin Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Ərizədə, Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə isə hər dəfə SMS və ya myAccess vasitəsilə razılaşdırılmış müddətidir. Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kreditin müddəti Kredit Limitinin Müddətini keçə bilməz.

1.63. **Kredit və Girov barədə qarışıq Müqavilə** – Ərizə və Ümumi Şərtlər əsasında rəsmiləşdirilən Müqavilədir. Kredit və Girov barədə qarışıq Müqavilə əsasında Bank Aksept etdiyi Ərizədə razılaşdırılmış Krediti fiziki şəxs olan Müştəriyə verməyi öhdəsinə götürür, fiziki şəxs olan Müştəri isə Krediti hesablanmış faizlərlə Banka qaytarmağı öhdəsinə götürür, eyni zamanda Girov Predmetini Kredit və Girov barədə qarışıq Müqavilə əsasında öhdəliklərinin icrasını təmin etmək üçün Banka girov qoyur.

1.64. **Komisyon haqq** – Kreditin verilməsi üçün Müştəri tərəfindən Tariflərə əsasən ödənilən birdəfəlik ödənişdir.

1.65. **Qanunvericilik –** Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyidir.

1.66. **Qorunan Əmanət –** “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununa əsasən müəyyən olunan və sığorta hadisəsi baş verdikdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan əmanətçiyə kompensasiya olunan əmanətidir.

1.67. **Login** - myAccess xidmətindən istifadə zamanı Müştərinin müəyyənləşdirilməsi üçün müvafiq Ərizədə qeyd olunan Müştərinin şərti adıdır. myAccess xidmətinin texniki imkanları daxilində Müştəri myAccess xidməti vasitəsilə öz Loginini dəyişə bilər.

1.68. **Məxfi Söz** – yalnız Müştəriyə və Bankın səlahiyyətli işçisinə məlum olan, Kart itirildikdə, o cümlədən Bank Xidmət(lər)inin göstərilməsi zamanı istifadə edilən gizli sözdür.

1.69. **Minimal hesab qalığı -** Ərizə ilə müəyyən olunduğu halda Kart Hesabının və Əlverişli Əmanət üzrə Əmanət Hesabının istənilən an üçün minimum qalığıdır. Minimal hesab qalığının məbləğini Bank birtərəfli qaydada artıra və ya azalda bilər.

1.70. **Müddətli Əmanət -** Əmanət Müddəti qurtardıqdan sonra Müştəriyə verilməsi şərtləndirilmiş Əmanətdir.

1.71. **Müqavilə** - Bank ilə Müştəri arasında yazılı razılaşmanı təsdiq edən, ayrı-ayrı Bank Xidmətlərinin təqdim edilməsi üsulunu, onların həyata keçirilməsi və istifadəsi, habelə Tərəflərin hüquq və vəzifələri ilə bağlı şərtləri müəyyən edən, Tərəflər arasında münasibətləri tənzimləyən Ümumi Şərtlər və Aksept edilmiş Ərizədən ibarət ikitərəfli yazılı əqddir. Müqavilə Müştərinin Aksepti aldığı anda bağlanmış sayılır. Müştərinin Aksepti aldığı an onun razılaşdığı Aksepti almasını təsdiq etdiyi an ilə müəyyən olunur.

1.72. **Müştəri –** Bankla Müqavilə bağlamış şəxs.

1.73. **Müştəri kodu –** Bank tərəfindən Müştəriyə təqdim olunan və Müştərinin eyniləşdirilməsi üçün istifadə edilən rəqəmlərin unikal, təkrarolunmaz ardıcıllığıdır. Üçüncü şəxsin xeyrinə Əmanət Hesabı açılan zaman Müştəri kodu xeyrinə Əmanət Hesabı açılan üçüncü şəxsə verilir.

1.74. **Müvəqqəti Şifrə** - myAccess Xidmətindən ilk istifadə üçün Bank tərəfindən Müştəriyə təqdim olunan simvolların unikal ardıcıllığıdır.

1.75. **myAccess Xidməti -** Bank Xidmətlərindən internet vasitəsilə istifadə edilməsini təmin etmək məqsədilə Müştəri üçün yaradılmış veb interfeys və elektron proqram təminatıdır.

1.76. **myAccess Xidmətinin Göstərilməsi haqqında Müqavilə** –Ərizə və Ümumi Şərtlər əsasında rəsmiləşdirilən Bank Xidmətlərindən internet vasitəsilə istifadə edilməsini təmin etmək məqsədilə bağlanmış Müqavilədir.

1.77. **myAccess Veb Səhifə -** Bankın https://myaccess.az ünvanlı veb səhifəsidir;

1.78. **myAccess Mobil Əlavəsi -** Bank Xidmətlərindən mobil telefonda internet vasitəsilə istifadə edilməsini təmin etmək məqsədilə Müştəri üçün yaradılmış elektron proqram təminatıdır.

1.79. **myCard –** Müvafiq Ərizədə müəyyən olunan faiz dərəcəsinə uyğun olaraq Minimal hesab qalığı və ondan artıq vəsait üçün faizlər hesablamaq və Müştəriyə ödəmək imkanı verən Kartdır. Kart Hesabında Minimal hesab qalığından az vəsait olduqda həmin pul vəsaiti üzrə faizlər hesablanmır və Müştəriyə ödənilmir. myCard üzrə Ərizədə Minimal hesab qalığı nəzərdə tutulmadığı təqdirdə faizlər Ərizədə müəyyən olunan faiz dərəcəsinə uyğun olaraq müsbət hesab qalığı üçün hesablanır. Bank müvafiq Ərizədə qeyd olunan faiz dərəcəsini birtərəfli qaydada artıra və ya azalda bilər.

1.80. **myGoal** - Müştəri tərəfindən Ərizədə göstərilən şərtlərlə istənilən zaman artırıla bilən və Əmanət Müddəti qurtardıqdan sonra fiziki şəxs olan Müştəriyə verilməsi şərtləndirilmiş Əmanətdir.

1.81. **Pərakəndə (nağd) kredit barədə Müqavilə** - Ərizə və Ümumi Şərtlər əsasında rəsmiləşdirilən Müqavilədir. Pərakəndə (nağd) kredit barədə Müqavilə əsasında Bank aksept etdiyi Krediti Ümumi Şərtlərlə razılaşdırılmış qaydada fiziki şəxs olan Müştəriyə verməyi,

fiziki şəxs olan Müştəri isə Krediti və Kredit Faizini Banka qaytarmağı öhdəsinə götürür. Pərakəndə (nağd) kredit barədə Müqavilədə Kredit Limiti, Kreditin Maksimum Faiz Dərəcəsi və Kredit Limitinin Müddəti müəyyən edilir. Müştəriyə Kredit Limiti və Kreditin Maksimum Faiz Dərəcəsi çərçivəsində və Kredit Limitinin Müddəti ərzində Ümumi Şərtlərlə razılaşdırılmış qaydada bir və ya bir neçə Kredit verilə bilər.

1.82. **Növbəti Əmanət -** Əmanət Planına uyğun olaraq Müştərinin yerləşdirməli olduğu əlavə Əmanət.

1.83. **Overdraft** – Kart Hesabında olan pul vəsaiti Kartdan istifadə etməklə aparılan Əməliyyat(lar) üçün kifayət etmədikdə, həmin Əməliyyat(lar)ın icrası üçün tələb olunan vəsaitin çatışmayan hissəsinin Müqavilə ilə razılaşdırdığı təqdirdə Bank tərəfindən ödənilməsidir.

1.84. **Ödəniş Kartı** (və yaxud "Kart") – nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi məqsədilə Kart Hesabında olan pul vəsaitindən istifadə etmək üçün verilən ödəniş alətidir.

1.85. **Ödəniş Planı** –Kredit və Girov barədə qarışıq Müqavilənin ayrılmaz tərkib hissəsi olmaqla Müştəri və Bank arasında razılaşdırılmış ödənişlərin qrafikidir.

1.86. **POS-Terminal** – Kart vasitəsilə Əməliyyat(lar)ın aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır.

1.87. **Prolonqasiya Seçimi** –Əmanət Hesabı Müqaviləsinin müddətinin uzadılması imkanıdır.

1.88. **Prosessinq Şirkəti** – Kartlardan istifadə etməklə aparılan Əməliyyat(lar) haqqında məlumatların toplanmasını, emalını və ötürülməsini, həmçinin Kartların Emissiyasına və Ekvayrinqinə texniki xidmət göstərilməsini həyata keçirən təşkilatdır.

1.89. **Sığorta Hadisəsi -** Bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud Qanunvericiliyə müvafiq olaraq Əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya Müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikasının maliyyə bazarları tənzimləyicisi tərəfindən təsdiq edilməsidir.

1.90. **Skimminq** – Kartın maqnit lentində əks olunan məlumatların köçürülməsi məqsədilə qanunsuz kart oxuyucusunun ödəniş terminalına quraşdırılması və məlumatların oxunmasıdır.

1.91. **SMS –** mobil rabitə operatorlarının təqdim etdiyi qısa mesaj xidməti.

1.92. **SMS məlumatlandırma xidməti** – Bankın Telefona SMS göndərməklə Kart vasitəsilə aparılan Əməliyyat(lar) barədə Kart İstifadəçisini məlumatlanıdrma xidmətidir.

1.93. **Stop-list** – Əməliyyat(lar)ın aparılması qadağan edilmiş Kartların siyahısıdır.

1.94. **Şəxsi Eyniləşdirmə Nömrəsi** (bundan sonra "PİN-kod") – Bank tərəfindən Müştəriyə və ya Müştəri tərəfindən vəkil edilmiş şəxsə təqdim edilən və Kartla Əməliyyat(lar)ın həyata keçirilməsi zamanı Kart İstifadəçisinin tanınmasında istifadə olunan gizli şifrədir.

1.95. **Şifrə -** myAccess Xidmətindən istifadə zamanı Müştərinin Eyniləşdirməsi üçün istifadə olunan simvolların unikal ardıcıllığıdır. Şifrə dəfələrlə istifadə üçün nəzərdə tutulub və Müştərinin özü tərəfindən dəfələrlə dəyişdirilə bilər.

1.96. **Tariflər –** Valyuta Məzənnələri istisna olmaqla, Müqavilədə nəzərdə tutulmuş xidmət haqları, o cümlədən faizlər, komisyon haqlar və digər ödəniş şərtləridir. Tariflər Bankın İnternet Səhifəsində yerləşdirilir.

1.97. **Telefon** – Müştərinin Ərizədə qeyd etməklə, myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi üzərindən qeydiyyatdan keçərkən müvafiq olaraq myAccess Veb Səhifəsi və myAccess mobil tətbiqinə daxil etməklə, habelə Bankın texniki imkanları çərçivəsində birtərəfli qaydada müəyyən etdiyi digər formada bəyan etməklə Bankla əlaqə qurulması,

habelə Bankın Müqavilə üzrə SMS-dən istifadə etməklə bildiriş və xəbərdarlıqları göndərməsi üçün Banka təqdim etdiyi, onun adına rəsmiləşdirilib-rəsmiləşdirilməməsindən asılı olmayaraq Müştərinin istifadəsində olan mobil telefon nömrəsidir. Müştəri, Bankı əvvəlcədən məlumatlandırmaqla Telefonu dəyişdirə bilər, bu şərtlə ki, müvafiq dəyişiklik Bank tərəfindən qəbul olunsun. Telefonun onun adına rəsmiləşdirilib-rəsmiləşdirilməməsindən asılı olmayaraq, Müştəri, Banka təqdim etdiyi Telefonun onun istifadəsində olduğunu təsdiq edir və Telefon vasitəsilə edilən hərəkətlər üçün tam məsuliyyət daşıyır.

1.98. **Texniki (icazə verilməmiş) overdraft** – Tərəflər arasında Overdraftın təqdim edilməsi barədə razılaşma olmadığı halda, Kart İstifadəçisi tərəfindən Kart vasitəsilə Kart Hesabında olan vəsaitdən artıq məbləğdə Əməliyyat(lar)ın aparılmasıdır.

1.99. **Təsərrüfat Subyekti** - Ekvayerlə bağlanmış müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması üçün Kartları ödəniş vasitəsi kimi qəbul edən şəxsdir.

1.100. **Tərəf** - Bank və Müştərinin Müqavilədə ayrı-ayrılıqda adlandırılmasıdır.

1.101. **Tərəflər** - Bank və Müştərinin Müqavilədə birlikdə adlandırılmasıdır.

1.102. **Valyuta Məzənnəsi –** Bankın müəyyən etdiyi, Azərbaycan manatının xarici valyutalara qarşı mübadilə məzənnələridir. Valyuta Məzənnələri Bankın İnternet Səhifəsində yerləşdirilir.

1.103. **Yeni Oferta –** Bank Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kredit Limiti çərçivəsində Müştərinin növbəti Kredit sifariş(lər)ini Müştərinin müvafiq Kredit sifarişindən fərqlənən başqa şərtlərlə bağlamağa razılıq verdiyi təqdirdə belə razılıq Bankın həmin Kredit sifarişindən imtinası və eyni zamanda Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kredit Limiti çərçivəsində Bankın yeni təklifi sayılır.

1.104. **Yığım Əmanəti** – Əmanət Planına uyğun olaraq yerləşdirilən və Əmanət Müddəti qurtardıqdan sonra fiziki şəxs olan Müştəriyə verilməsi şərtləndirilmiş Əmanətdir.

1.105. **Yığım Əmanəti üzrə Bonus** - Əmanət Planına uyğun olaraq Hədəf Əmanət Bankda yerləşdirildiyi və aylıq ödənişlərin Əmanət Planına uyğun ödənilməsi halında Bitmə Tarixində Müştəriyə ödənilən mükafat.

1.106. **Yüksələn Əmanət** - Əmanət Müddəti ərzində Əmanət Faizlərinin Əmanət Faizlərinin Hesablanması Cədvəlinə uyğun olaraq ödənilməsi şərtləndirilmiş Əmanətdir.

## 2. ÜMUMİ MÜDDƏALAR

2.1. Müqavilə bağlandığı andan Ümumi Şərtlər və Tariflər, o cümlədən onlara əlavə və dəyişikliklər Müqavilənin tərkib hissəsinə çevrilir.

2.2. Müqavilənin bağlanması Tərəflər üçün hər hansı bir məhdudiyyət tətbiq edilmədən Ümumi Şərtlərin, Tariflərin və Valyuta Məzənnəsinin tam və qeyd-şərtsiz qəbul edildiyi anlamına gəlir.

2.3. Ayrı-ayrı Bank Xidmətlərini almaq üçün Müştəri müvafiq Ərizəni Banka təqdim etməlidir.

2.4. Müştərinin Bank Xidmətlərindən istifadə hüququ Ərizənin Akseptini aldığı andan, yəni Müqavilənin bağlandığı andan yaranır.

2.5. Müştəri Ərizəni kağız daşıyıcıda şəxsən imzalamaqla, habelə myAccess üzərindən Analoq İmza və ya ASAN İmza vasitəsilə təsdiqləməklə Banka təqdim edə bilər.

2.6. Ərizənin Bank tərəfindən Bankın səlahiyyətli nümayəndəsinin imzası və Bankın möhürü ilə, habelə Bank tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilməsi və Müştəriyə təqdim edilməsi Bankın Aksepti hesab edilir.

2.7. Müqavilə ilə nəzərdə tutulmayan bank xidmətlərinin göstərilməsi Bank və Müştəri arasında bağlanmış müvafiq ayrıca müqavilələrlə tənzimlənir.

2.8. Müqavilə Bankla Müştəri arasında qüvvədə olan müqavilələrin şərtlərini dəyişdirmir və onlara təsir etmir.

2.9. Müştərinin göstərilən xidmətlərə görə Banka ödənilməli olan xidmət haqqının məbləği və ödəniş şərtləri Bankın İnternet Səhifəsində yerləşdirilən Tariflərə əsasən müəyyən edilir.

## 3. CARİ HESABLAR

3.1. Cari Hesab açılması üçün hesabın valyutası və hesabla bağlı digər zəruri məlumatlar, o cümlədən Cari Hesab açılması üçün tələb olunan sənədlərin siyahısı müvafiq Ərizədə nəzərdə tutulur. Bank Cari Hesabın açılması üçün Müştəridən Qanunvericilikdə nəzərdə tutulmuş digər sənədləri və məlumatları, habelə eyniləşdirmə üsullarından istifadə edərək Bankla əlaqə yaratmasını da tələb edə bilər.

3.2. Məsafədən Cari Hesabın açılması üçün yeni Müştərinin təqdim etdiyi Ərizə Müştəri tərəfindən imzalanmalıdır.

3.3. Məsafədən açılan Cari Hesab üzrə Bank Qanunvericilikdə nəzərdə tutulmuş Əməliyyat Limit(lər)i tətbiq edir.

3.4. Cari Hesab üzrə əməliyyatlar aparıldıqda Müştəriyə Cari Hesabdan Çıxarışlar verilir. Müştəri Cari Hesabdan Çıxarışı aldıqdan sonra 15 (on beş) təqvim günü ərzində öz iradını Banka bildirmirsə, Cari Hesabdan Çıxarış barədə Müştərinin etirazının olmaması hesab edilir.

3.5. Cari Hesabdan vəsaitin köçürülməsi Müştərinin yazılı sərəncamları və (və ya) Elektron Ödəmə Tapşırıqları əsasında aparılır.

3.6. Cari Hesabdan vəsaitin köçürülməsi və (və ya) verilməsi haqqında Müştərinin adından sərəncam verən şəxslərin siyahısı, orada birinci və/və ya ikinci imzaya malik iki və ya daha çox şəxsin imzası qeyd olunduqda, həmin imzaların istifadəsi qaydası müvafiq olaraq Müştəri tərəfindən Banka təqdim olunmuş imza nümunəsi və ya imza və möhür nümunəsi vərəqəsində müəyyən olunur. Fiziki şəxs olan Müştəri Cari Hesabın fəaliyyəti dövründə hesab üzrə sərəncam hüququnu başqa şəxslərə həvalə etdikdə, həmin şəxslərin imzaları notariat qaydasında təsdiq olunmuş etibarnamə və ya fiziki şəxs olan Müştərinin ərizəsi əsasında onun iştirakı ilə Bank tərəfindən imza nümunəsi vərəqəsində təsdiq olunur. Şəxsin etibarlılığına, onun hüquqi fəaliyyət qabiliyyətinə şübhə yarandığı halda bank imza nümunəsi vərəqəsinin notariat qaydasında təsdiqini tələb edə bilər.

3.7. Cari Hesab üzrə bütün Əməliyyatlar həmin hesabda olan vəsait qalığı həcmində və Qanunvericilikdə müəyyən olunmuş limitlər çərçivəsində aparılır. Cari Hesabda pul vəsaitinin olmamasına baxmayaraq, Bank öz mülahizəsinə əsasən Əməliyyatları həyata keçirməklə Cari Hesabı kreditləşdirə bilər və Bank bu cür ödənişi həyata keçirdiyi gündən Müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

3.8. Cari Hesab hazırki Ümumi Şərtlərin 3.7-ci bəndinə uyğun olaraq kreditləşdirildikdə Müştəri həmin hesabın kreditləşdirildiyi (mənfi balans yarandığı) tarixdən etibarən borcun 10 (on) iş günü ərzində Banka geri qaytarılmasını təmin etməlidir. Cari Hesabın kreditləşdirilməsi nəticəsində yaranmış borc 10 (on) iş günü ərzində Banka qaytarılmadıqda, hesabın kreditləşdirildiyi tarixdən yaranmış borc üzrə Bank Müştəriyə illik 25 (iyirmi beş) faiz dərəcəsi ilə faizlər hesablaya və tələb edə bilər. Bu halda Müştəri yaranmış borcu hesablanmış faizlərlə birlikdə ən geci 30 (otuz) təqvim günü ərzində Banka ödəməlidir. Faizlərin hesablanması borc tam ödənilən günə qədər davam edir.

3.9. Cari Hesabdakı pul vəsaiti Qanunvericiliklə müəyyən edilmiş ardıcıllıqla silinir.

3.10. Müştəri ödəniş əməliyyatını müvəffəqiyyətlə başa çatdırmaq məqsədilə, Müştəriyə aid fərdi və ya Bank sirri təşkil edən məlumatların Bank tərəfindən kontragent banka verilməsinə və bu məqsədlə transsərhəd ötürülməsinə öz razılığını bildirir.

3.11. Bank Cari Hesab üzrə Əməliyyatları Qanunvericiliyə və bank praktikasına uyğun olaraq aparmağı öhdəsinə götürür.

3.12. Bank Müştərinin Cari Hesabına daxil olan bütün pul vəsaitlərinin saxlanmasına və təhlükəsizliyinə təminat verir.

3.13. Bank, Qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, pul vəsaitini Müştəridən qəbul etməyi, ona və ya onun sərəncamı ilə üçüncü şəxslərə verməyi öz öhdəsinə götürür.

3.14. Bank Cari Hesabda olan pul vəsaitinə dair Müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə həmin pul vəsaitindən istifadə etmək hüququna malikdir.

3.15. Bank Müştərinin Cari Hesabındakı pul vəsaitindən istifadə etməyə görə ona faizlər ödəməyə borclu deyildir.

3.16. Bank Cari Hesab, həmin hesab üzrə Əməliyyatlar və qalıqlar, habelə Müştəri haqqında məlumatların, o cümlədən Müştərinin adı və ünvanı haqqında məlumatların sirrinə təminat verir və Qanunvericiliyin tələblərinə uyğun olaraq onu qorumağı öhdəsinə götürür.

3.17. Bank Müştərinin Müqavilə və ya istənilən digər öhdəlikləri üzrə Banka ödəməli olduğu vəsaiti, o cümlədən göstərilmiş Bank Xidmətlərinə görə xidmət haqqını və bank hesabına səhvən mədaxil edilmiş məbləğləri ödəmə tarixlərindən etibarən Müştərinin Bankdakı hesablarından birtərəfli qaydada öz xeyrinə silmək hüququna malikdir. Bu bənd üzrə hesabdan silinən vəsaitin valyutası icra edilməli öhdəliyin valyutasından fərqli olduqda müvafiq mübadilə silinmənin icra edildiyi tarixə olan Valyuta Məzənnəsi əsasında həyata keçiriləcək.

3.18. Müştəri onun hesabına səhvən mədaxil edilmiş məbləği Banka qaytarmaqdan hər hansı şəkildə yayındıqda həmin vəsaitin vaxtında qaytarılmamasına və ya istifadə edilməsinə görə müvafiq pul vəsaitləri geri qaytarılana qədər Banka səhvən mədaxil edilmiş məbləğin 0,1 (sıfır tam onda bir) faizi həcmində cərimə ödəməlidir.

3.19. Müştəri, Qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla, Cari Hesab üzrə qeyri məhdud sərəncam vermək hüququna malikdir.

3.20. Bank üçüncü bankların səhvi nəticəsində Əməliyyatların icrasının gecikməsi və ya lazımi qaydada icra olunmaması səbəbindən Müştərinin üzləşdiyi itkilərə görə məsuliyyət daşımır.

3.21. Bank onun təqsiri olmadan hər hansı səbəbdən aparılması mümkün olmayan və (və ya) gecikən Əməliyyatlara görə məsuliyyət daşımır.

3.22. Müştəri Banka əvvəllər təqdim etdiyi məlumatlarla bağlı olan bütün dəyişikliklər haqqında dərhal, lakin Cari Hesab üzrə növbəti Əməliyyatın edilməsindən gec olmayaraq Banka məlumat verməlidir.

3.23. Məsafədən Cari Hesab açmış Müştəri Bankın inzibati binasında Cari Hesab üzrə Əməliyyat aparmaq istədikdə müvafiq olaraq imza nümunəsini və imza və möhür nümunəsi vərəqəsini də Banka təqdim etməlidir.

3.24. Müştəri, Qanunvericilikdən irəli gələn hallarda, habelə pul vəsaitlərinin qeyri-sağlam xarakterli Əməliyyat(lar)da, o cümlədən çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsində istifadə edilmədiyinə əmin olmaq məqsədilə Bankın tələb etdiyi hallarda öz pul axını, maliyyə mənbələri, benefisiar mülkiyyətçi, o cümlədən icrası nəzərdə tutulan Əməliyyat(lar)ın təyinatına dair məlumatları Bankın ilk tələbi ilə ona təqdim etməli, həmçinin tələb olunan sorğu anketini doldurmalıdır.

3.25. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının

Qanununda nəzərdə tutulmuş hallarda əməliyyatların icrası Bank tərəfindən birtərəfli qaydada dayandırılır və Cari Hesabdakı vəsaitlər dondurulur.

3.26. Müştəri Cari Hesab Müqaviləsini Banka müvafiq ərizə təqdim etməklə birtərəfli qaydada ləğv edə bilər.

3.27. Bank Cari Hesab Müqaviləsini aşağıdakı hallarda məhkəməyə müraciət etmədən birtərəfli qaydada ləğv edə bilər:

3.27.1. Məsafədən açılmış Cari Hesab üzrə Qanunvericiliklə müəyyən olunmuş Əməliyyat Limit(lər)i aşıldıqda;

3.27.2. Şəhadətnamə-dublikatın etibarsız hesab olunması barədə vergi orqanının məlumatı daxil olduqda;

3.27.3. Hesabda saxlanan pul vəsaitinin məbləği 365 gün ərzində 10 AZN və ya onun ekvivalentindən az olduqda;

3.27.4. Son 1 (bir) il ərzində Cari Hesab üzrə Əməliyyat aparılmadıqda;

3.27.5. Cari Hesabdan qeyri-leqal məqsədlər üçün istifadə edildiyi şübhəsi olduqda;

3.27.6. Müştəri öz pul axını və maliyyə mənbələrinə, habelə benefisiar mülkiyyətçiyə dair məlumatları, o cümlədən bu Müqavilənin 3.23-cü və ya 3.24-cü bəndinə uyğun olaraq tələb edilən digər məlumatları Bankın ilk tələbi ilə təqdim etmədikdə və ya sorğu anketini doldurmadıqda;

3.27.7. Müştəri və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədikdə, Müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduqda, habelə müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadıqda;

3.27.8. Müştərinin Banka yanlış məlumat verdiyi aşkar edildikdə, habelə özü barəsində saxta, düzgün olmayan sənədlər təqdim etdikdə və ya Bankı digər formada aldatdıqda;

3.27.9. Qanunvericiliklə müəyyən edilmiş digər hallarda və qaydada.

3.28. Cari Hesab Müqaviləsinin ləğv edilməsi Müştərinin Cari Hesabının bağlanması üçün əsasdır.

3.29. Bank, Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, Cari Hesabın açılmasından imtina edildiyi, Cari Hesab üzrə əməliyyatlar dayandırıldığı, Cari Hesabdakı vəsaitlər dondurulduğu və ya Cari Hesab bağlandığı gün Müştəriyə bu barədə yazılı (elektron və ya kağız daşıyıcıda) məlumat verir.

3.30. Cari Hesab bağlandıqda Cari Hesabdakı pul vəsaiti Müştəriyə verilir və ya onun göstərişi ilə müvafiq yazılı ərizəsi əsasında başqa hesaba köçürülür.

3.31. Hesabın qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür və Müştəriyə bu barədə yazılı (elektron və ya kağız daşıyıcıda) məlumat verilir.

3.32. Məsafədən Cari Hesab açılması barədə şərtlər Qanunvericilikdə nəzərdə tutulmuş çərçivədə və Bankın texniki imkanları yol verdiyi təqdirdə tətbiq olunur.

3.33. Əmanət Hesabı və Kartlara dair ayrı qayda nəzərdə tutulmamışdırsa, Ümumi Şərtlərin Cari Hesaba dair müəyyən olunmuş qaydaları Əmanət Hesabı və Kart Hesabı üzrə Bank ilə Müştərinin münasibətlərinə də tətbiq olunur.

## 4. myAccess XİDMƏTİ

4.1. myAccess Xidmətinin Göstərilməsi haqqında Müqavilənin xüsusi (mühüm) şərtləri myAccess Xidməti barədə Ərizədə qeyd edilir, habelə Müştəri myAccess

Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyatdan keçərkən müvafiq olaraq myAccess Veb Səhifəsi və myAccess mobil tətbiqinə daxil edilir.

4.2. Müştəri Cari Hesab Müqaviləsi, Kart Hesabı Müqaviləsi və Əmanət Hesabı Müqaviləsi bağlamaqla eyni zamanda myAccess Xidməti barədə Ümumi Şərtləri qəbul etdiyini bəyan etmiş hesab olunur və bu Ümumi Şərtlərdə müəyyən olunmuş şərtlərlə myAccess Xidmətindən istifadə hüququ əldə edir.

4.3. Bank myAccess vasitəsi ilə Müştəriyə aşağıdakı xidmətlərin həyata keçirilməsini təmin edəcək:

4.3.1. Müştərinin bank hesabları üzrə qanunvericiliklə icazə verilən istənilən Əməliyyat(lar)ın aparılması;

4.3.2. Bank Xidmətlərinə dair mülki-hüquqi əqdlərin Analoq İmza, həm də Asan İmzadan istifadə etməklə bağlanması;

4.3.3. Bankla sənəd və məlumat mübadiləsi;

4.3.4. Banka Elektron Sifarişlərin təqdim edilməsi;

4.3.5. Elektron Ödəniş Tapşırığının təqdim edilməsi.

4.4. Bank istənilən vaxt Müştəridən myAccess Xidməti vasitəsi ilə təqdim edilən sənədlərin kağız daşıyıcıda olan əslini tələb etmək hüququna malikdir. Bu zaman sənədlərin təqdim edilməməsi Əməliyyatdan imtina üçün əsasdır.

4.5. Bank müvafiq Ərizəni Aksept etdikdən, habelə Müştəri myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyatdan keçdiyi təqdirdə müvafiq qeydiyyat tamamlandıqdan sonra gələn ilk İş Günündən gec olmamaq şərti ilə Müştərinin myAccess Xidmətindən istifadə etməsini təmin edir.

4.6. myAccess Xidməti barədə Ərizəni Aksept etmək vasitəsilə qeydiyyatdan keçməklə myAccess Xidmətindən istifadə etmək üçün:

4.6.1. Müştəri Ərizədə qeyd olunmuş Loginini və Telefonunu myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqində qeyd edir;

4.6.2. myAccess Xidmətindən istifadə etmək üçün Bank Müvəqqəti Şifrəni SMS vasitəsi ilə Telefona göndərir;

4.6.3. myAccess Xidmətindən istifadə etmək üçün Müştəri ilk dəfə Login və Müvəqqəti Şifrəni daxil etməlidir. Bundan dərhal sonra Müvəqqəti Şifrənin dəyişdirilməsi tələb ediləcək və Müvəqqəti Şifrə Müştərinin seçdiyi Şifrə ilə əvəz olunacaq.

4.7. Digər Bank Xidmətlərindən birinin Ərizəsini Aksept etdikdən sonra myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyatdan keçməklə myAccess Xidmətindən istifadə etmək üçün:

4.7.1. Azərbaycan Respublikasının vətəndaşı olan Müştəri şəxsiyyət vəsiqəsinin fərdi indentifikasiya nömrəsini (FİN kod) və Telefonunu, Azərbaycan Respublikasının vətəndaşı olmayan Müştəri müvafiq olaraq müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin nömrəsini və Telefonunu, habelə vətəndaşlığından asılı olmayaraq fiziki şəxs olan istənilən Müştəri Kartın nömrəsini və Telefonunu myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqinə daxil edir;

4.7.2. myAccess Xidmətindən istifadə etmək üçün Bank Müvəqqəti şifrəni SMS vasitəsilə Telefona göndərir;

4.7.3. myAccess Xidmətindən istifadə etmək üçün Müştəri Müvəqqəti Şifrəni daxil edir. Bundan dərhal sonra Müvəqqəti Şifrənin dəyişdirilməsi tələb edilir və Müvəqqəti Şifrə Müştərinin seçdiyi Şifrə ilə əvəz olunur.

4.8. Müştəri myAccess Veb Səhifəsi və ya myAccess mobil tətbiqi vasitəsilə qeydiyyatdan keçdiyi təqdirdə Müştərinin Telefonu onun Logini hesab olunur.

4.9. Müştəri həm Analoq İmza, həm də Asan İmzadan istifadə etməklə myAccess Xidmətindən istifadə edə bilər.
4.10. Bank Müştəriyə myAccess Veb Səhifəsi və myAccess mobil əlavə vasitəsi ilə 24 (iyirmi dörd) saat, 151 əlaqə telefonu üzrə isə hər gün saat 09:00-dan 22:00-dək dəstək xidməti təqdim edir.
4.11. Əməliyyatlar Qanunvericiliyə və Bankın daxili qaydalarına uyğun olaraq həyata keçirilir.
4.12. myAccess Xidmətindən istifadə etməklə bağlı təhlükəsizlik üzrə tövsiyələr Bankın İnternet Səhifəsində və ya myAccess Veb Səhifəsi və myAccess mobil əlavəsində ümumi məlumat bölməsində yerləşdirilir.
4.13. Bank myAccess Xidmətindən normal istifadə olunması məqsədi ilə myAccess Veb Səhifəsi və myAccess mobil əlavənin funksionallığına təminat verir.
4.14. Müştəri myAccess Xidmətinin müvəqqəti məhdudlaşdırılması və ya dayandırılmasına səbəb ola biləcək texniki işlər haqqında öncədən Bankın İnternet Səhifəsində, myAccess Veb Səhifəsində və ya myAccess mobil əlavəsində məlumat yerləşdirməklə xəbərdar ediləcək.
4.15. Bank tərəfindən myAccess Xidməti üzrə qəbul edilmiş, icra edilmiş və icrası imtina olunmuş Elektron Ödəniş Tapşırıqlarının elektron jurnalı aparılır.
4.16. Müştəri myAccess Xidməti vasitəsilə aparılan Əməliyyat(lar)ın məbləğinin hesabdan silinəcəyini və bu növ Əməliyyat(lar) üzrə kağız daşıyıcıda satış qəbzinin tərtib edilməyəcəyini qəbul edir.
4.17. Müştəri ölkə xaricində olduqda Telefonun rouminq xidmətinin aktiv olmasını təmin etməlidir. Rouminq xidməti ilə bağlı yarana biləcək problemlərə görə Bank məsuliyyət daşımır.
4.18. Bank myAccess Xidmətindən istifadəyə dair hər hansı əlavə və dəyişikliklər ediləcəyi təqdirdə, müvafiq xəbərdarlıqları öncədən Bankın İnternet Səhifəsində, myAccess Veb Səhifəsi və myAccess mobil əlavəsində yerləşdirməklə Müştərini məlumatlandırmalıdır.
4.19. Bankın myAccess Xidmətinin mühafizə qaydalarının pozulması təhlükəsi olduqda və ya Qanunvericiliyin tələblərinə zidd olduqda Elektron Ödəniş Tapşırığını icra etməmək hüququ var.
4.20. Bank profilaktik işlərin aparılması məqsədilə Müştərini əvvəlcədən xəbərdar etməklə myAccess Xidmətini müvəqqəti olaraq dayandıra bilər.
4.21. Aşağıda qeyd olunan hallarda Bank myAccess Xidmətindən istifadəni məhdudlaşdırır:
4.21.1. Bankın mülahizəsinə görə bu myAccess Xidmətinin mühafizəsi üçün zəruri olduqda (Şifrənin 3 dəfədən artıq yanlış daxil edilməsi və.s.);
4.21.2. Login və Müvəqqəti Şifrənin, Şifrənin və Birdəfəlik Şifrənin üçüncü şəxsə ötürülməsi faktı aşkar edildikdə;
4.21.3. myAccess Xidmətindən istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması qeydə alındıqda.
4.22. Bank aşağıdakı hallarda Elektron Ödəniş Tapşırığının icrasından imtina edə bilər:
4.22.1. Əməliyyatın icrası və onun üçün ödənilməli komissiyon haqqının ödənişi üçün Müştərinin hesabında kifayət qədər maliyyə vəsaiti olmadıqda;
4.22.2. Əməliyyat məbləği Əməliyyat Limitlərindən artıq olduqda;
4.22.3. Əməliyyat Qanunvericiliyə zidd olduqda;
4.22.4. Fiziki şəxs olan Müştərinin Əməliyyatının sahibkarlıq fəaliyyəti ilə bağlı olduğuna şübhə yarandıqda;
4.22.5. Əməliyyatın həyata keçirilməsi üçün Qanunvericiliyə uyğun olaraq Müştərinin Banka əlavə sənəd və məlumatları təqdim etməsi tələb edildiyi hallarda;
4.22.6. Əməliyyatın rekvizitlərinin yanlış və ya natamam qeyd edilməsi, Əməliyyatın həyata keçirilmə müddətinə riayət edilməməsi hallarında.
4.23. Müştəri istənilən vaxt myAccess Xidmətinin göstərilməsinin dayandırılması üçün Banka

müraciət edə bilər.

4.24. Müştəri tərəfindən son 1 (bir) il ərzində myAccess Xidmətindən istifadə edilmədiyi təqdirdə Bank myAccess Xidmətinin Göstərilməsi haqqında Müqaviləni Müştəriyə əvvəlcədən xəbərdarlıq etmədən birtərəfli qaydada ləğv edə bilər.

4.25. Müştəri Analoq İmza və Asan İmzanın gizli saxlanılmasını təmin etmək və üçüncü şəxslərin icazəsiz istifadəsi ilə bağlı öhdəliklər üzrə tam məsuliyyət daşıyır.

4.26. Müştəri myAccess Xidmətinə icazəsiz girişlə bağlı şübhəsi yarandıqda dərhal Bankı məlumatlandırmalıdır. Əks halda Analoq İmza və ya Asan İmzanın üçüncü şəxslər tərəfindən istifadəsi halı baş verərsə, üçüncü şəxslər tərəfindən həyata keçirilmiş Əməliyyat(lar)a görə Müştəri məsuliyyət daşıyacaq.

## 5. KARTLAR

5.1. Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilə həmin müqavilə üzrə verilmiş sonuncu Kartın istifadə müddəti bitənədək etibarlıdır.

5.2. Kart Hesabının açılması üçün hesabının valyutası, Kartın növü, müddəti və Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilənin digər xüsusi (mühüm) şərtləri, o cümlədən Kart Hesabının açılması üçün tələb olunan sənədlərin siyahısı müvafiq Ərizədə qeyd edilir.

5.3. Müştəri Kartın istifadə müddətinin bitməsinə ən gec 15 (on beş) İş Günü qalmış Kartın yeni müddətə Emissiyası üçün Banka ərizə ilə müraciət etdikdə, Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilənin müddəti yeni Kartın istifadə müddətinin sonuna kimi uzadılır.

5.4. Müştəri müvafiq Ərizəni, o cümlədən Ərizə ilə tələb olunan sənədləri Banka təqdim etdikdən və Tariflər ilə nəzərdə tutulmuş halda xidmət haqqını ödədikdən sonra 10 (on) İş Günü ərzində Kart, Müştərinin istəyinə uyğun sayda Əlavə Kart Müştəriyə və ya Müştəri tərəfindən vəkil edilmiş şəxsə təhvil verilir. Müştəri imtina etmədiyi təqdirdə Kartın təhvil verilməsi ilə eyni zamanda "3D secure"yə qoşulur. Müştəri istənilan zaman "3D secure"dən istifadənin dayandırılması üçün Banka müraciət edə bilər.

5.5. Kart vasitəsilə bir qayda olaraq Kart Hesabında olan pul vəsaitinin məbləği həddində ödəniş edilə bilər. Müştəri Kart Hesabında Kartdan istifadə etməklə aparılan Əməliyyat(lar) üçün kifayət qədər pul vəsaitinin olmasını təmin etməlidir.

5.6. Kart İstifadəçisi Qanunvericilikdə və hazırkı Ümumi Şərtlərdə nəzərdə tutulmuş qaydada Kartdan istifadə etməklə aşağıdakı Əməliyyatları apara bilər:

5.6.1.1. Mal, iş və xidmətlərin dəyərinin ödənilməsi;

5.6.1.2. Vergi, rüsum, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin aparılması;

5.6.1.3. Valyuta mübadiləsinin aparılması;

5.6.1.4. Nağd pul vəsaitinin alınması;

5.6.1.5. Qanunvericiliyə zidd olmayan və işgüzar dövriyyədə tətbiq olunan digər Əməliyyatlar.

5.7. Əməliyyat məbləği Əməliyyat Limitlərindən artıq olduqda Bank həmin Əməliyyat(lar)ın icrasından imtina edə bilər.

5.8. Kart Hesabında pul vəsaiti olmadığı və ya kifayət qədər olmadığı halda Kartdan istifadə etməklə Əməliyyat aparıldıqda yaranmış borc Müştərinin Bankda açılmış istənilən bank hesabından Bankın xeyrinə silinir.

5.9. Beynəlxalq ödəniş sistemləri tərəfindən Chargeback üzrə vəsaitlər beynəlxalq ödəniş sistemlərinə geri qaytarıldıqda, həmin vəsait Müştərinin Bankda açılmış istənilən bank hesabından Bankın xeyrinə silinir.

5.10. Overdraft və ya Chargeback nəticəsində borc yarandıqda Bank Müştəriyə bu barədə məlumat verir və Müştəri həmin borcun 3 (üç) İş Günü ərzində Banka geri qaytarılmasını təmin etməlidir.

5.11. Overdraft və ya Chargeback nəticəsində yaranmış borc Ümumi Şərtlərin 5.10-cu bəndində nəzərdə tutulmuş müddətdə Banka qaytarılmadıqda, yaranmış borc üzrə Bank Müştəriyə illik 25 (iyirmi beş) faiz dərəcəsi ilə faizlər hesablaya bilər. Bu halda Müştəri yaranmış borcu hesablanmış faizlərlə birlikdə ən geci 30 (otuz) təqvim günü ərzində Banka ödəməlidir. Faizlərin hesablanması borc tam ödənilən günə qədər davam edir.

5.12. Overdraft və ya Chargeback nəticəsində yaranmış borc və həmin borca hesablanmış faizlər Ümumi Şərtlərin 5.11-cu bəndində nəzərdə tutulmuş müddətdə Banka qaytarılmadıqda, Bank borcun qalıq məbləğinə illik 36 (otuz altı) faiz dərəcə ilə dəbbə pulu hesablaya və Müştəridən tələb edə bilər.

5.13. Overdraft və ya Chargeback nəticəsində yaranmış borc məbləği və faizlər ödənilənə qədər Bank Kartı bloklaşdıra bilər və bununla əlaqədar Bankın çəkdiyi və ya çəkməli olduğu bütün xərclər beynəlxalq ödəniş sistemlərində tətbiq olunan Tariflərə uyğun olaraq Müştəri tərəfindən Banka ödənilməlidir.

5.14. Kartdan istifadə etməklə Kart Hesabı üzrə aparılan Əməliyyatlar üzrə pul vəsaiti Əməliyyatların Reyestri Banka daxil olduqdan sonra növbəti İş Günündən gec olmayaraq Kart Hesabından silinir.

5.15. Kart Hesabının valyutasından fərqli valyutada aparılan Əməliyyatın məbləği Kartın növündən asılı olaraq VISA və ya MasterCard beynəlxalq ödəniş sistemlərinin məzənnəsi nəzərə alınmaqla Kart Hesabından Əməliyyatın məbləğinin silindiyi tarixə Valyuta Məzənnəsinə uyğun olaraq Kart Hesabının valyutasına konvertasiya edilir.

5.16. Beynəlxalq əməliyyatların məbləği Kartın növündən asılı olaraq VISA və ya MasterCard beynəlxalq ödəniş sistemləri ilə hesablaşmalar üçün istifadə edilən valyutaya, daha sonra isə Kart Hesabının valyutasına konvertasiya edilir.

5.17. Banka məxsus olmayan bankomat və ya digər elektron qurğular vasitəsilə Kartdan istifadə etməklə Kart Hesabı üzrə Əməliyyatlar aparıldıqda, Bankın xidmət haqqına əlavə olaraq, Kart Hesabından həmin bankomat və ya digər elektron qurğuların məxsus olduğu digər bankın xidmət haqqı tutula bilər.

5.18. Kartdan istifadə etməklə Kart Hesabı üzrə Kart Hesabının valyutasından fərqli valyutada Əməliyyatlar aparıldıqda, Əməliyyat Tarixinin Valyuta Məzənnəsi Əməliyyatın işləndiyi tarixin Valyuta Məzənnəsindən fərqli ola bilər. Məzənnə fərqinə görə yaranmış borc Müştəri tərəfindən mübahisələndirilə bilməz və həmin borc Kart Hesabından Bankın xeyrinə tutulacaq.

5.19. Hazırki Ümumi Şərtlərin 5.18-ci bəndinə əsasən məzənnə fərqi üzrə borc yarandıqda Bank Müştəriyə bu barədə məlumat verir və Müştəri həmin borcun 3 (üç) İş Günü ərzində Banka geri qaytarılmasını təmin etməlidir. Əks halda Bank borcun yarandığı tarixdən etibarən həmin borcun məbləğinə illik 36 (otuz altı) faiz dərəcəsi ilə dəbbə pulu hesablaya və Müştəridən tələb edə bilər.

5.20. Bank Kartdan qeyri-qanuni istifadənin qarşısının alınması, Kartın bloklaşdırılması və ləğv edilməsi üçün Bank tərəfindən çəkilmiş xərclərin Müştərinin sərəncamı olmadan onun Bankda olan istənilən bank hesabından öz xeyrinə silə bilər.

5.21. Kart Emissiya edildikdən sonra 60 (altmış) təqvim günü ərzində Müştəri tərəfindən təhvil alınmadıqda Bank həmin Kartı və Kart Hesabını ləğv edə bilər.

5.22. Bank öncədən məlumat verməklə, Əməliyyat Limitləri müəyyən edir.

5.23. Kartdan istifadə etməklə hesab üzrə Əməliyyatların aparılması qaydası Qanunvericilik, Ümumi Şərtlər, həmçinin ümumi qəbul edilmiş bank qaydaları ilə müəyyən edilir.

5.24. Kart İstifadəçisi, Kartdan Bankın üzvü olduğu/olacağı beynəlxalq kart təşkilat(lar)ının (məsələn VİSA, MasterCard və s.) müəyyən etdiyi/edəcəyi qaydalara uyğun istifadə etməli və həmin təşkilatların qaydalarına əməl etməlidir.

5.25. Kartdan istifadə etməklə Kart Hesabı üzərində sərəncam vermək hüququ Kart İstifadəçisinə məxsusdur.

5.26. Kartdan istifadə olunmaqla aparılmış bütün Əməliyyatlara, habelə Müştəri tərəfindən Kart İstifadəçisinin məlumatlarının Banka yanlış təqdim edilməsinə görə Müştəri məsuliyyət daşıyır.

5.27. Müştəri Banka yazılı qaydada (kağız və ya elektron) müraciət etməklə Kart İstifadəçisini Kartdan istifadə etməklə Kart Hesabı üzərində sərəncam vermək hüququndan məhrum edə bilər.

5.28. Kart ondan istifadə etməklə Müştəriyə Azərbaycan Respublikasında və ondan kənarda VISA və Mastercard/Maestro loqotipini daşıyan Ödəniş Kartlarının qəbul edilməsi haqqında üzərində qeyd olan təsərrüfat subyektlərində nağdsız əməliyyatları (malların və xidmətlərin dəyərinin ödənilməsi), Bankomatlarda və ya POS-terminallarda isə nağdlaşdırma əməliyyatları (nağd pulun çıxarılması) həyata keçirmək imkanı verir.

5.29. Kart İstifadəçisini Eyniləşdirmək məqsədilə Müştəriyə Kart verilərkən Bank tərəfindən ona və yaxud onun vəkil etdiyi şəxsə PIN-kod təqdim olunur. PIN-kod Kart İstifadəçisinin imzasının analoqudur və PIN-koddan istifadə etməklə Kart üzrə aparılmış Əməliyyatlar Kart İstifadəçisi tərəfindən aparılmış Əməliyyat kimi qəbul edilir. Kartın və ya onun PIN-kodunun üçüncü şəxslərə verilməsi qadağandır.

5.30. Müştəri Bankın Bankomatında PİN kodu dəyişdirə bilər. Bu zaman asan əldə oluna biləcək kombinasiyalardan (məs: doğum tarixi, telefon nömrəsinin son rəqəmləri və s.) istifadə edilməməlidir.

5.31. Kartın son istifadə tarixi onun üzərində qeyd olunan təqvim ilinin ayının son günü hesab olunur və həmin tarixdə Kartın fəaliyyəti avtomatik dayandırılır.

5.32. Kartın istifadə müddəti bitdikdə, o itirildikdə və ya zədələndikdə Müştərinin ərizəsinə əsasən Bank onun üçün yeni Kart Emissiya edir. Yeni Kartın dəyəri Müştəri tərəfindən Tariflərə uyğun olaraq əvvəlcədən Banka ödənilməlidir.

5.33. Bu Qaydaların 5.34-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, PİN-kod Bank tərəfindən Eyniləşdirmə aparıldıqdan sonra Telefona göndərilən SMS vasitəsilə Müştəriyə və yaxud onun səlahiyyətli nümayəndəsinə təqdim olunur.

5.34. Bank tərəfindən Eyniləşdirmə aparılması mümkün olmadığı, habelə Bankın zəruri hesab etdiyi digər hallarda PİN-kod Müştəriyə və ya onun səlahiyyətli nümayəndəsinə içində PİN-kod olan qapalı zərfdə təqdim olunur.

5.35. Müştəri Kartı, habelə PİN-kod qapalı zərfdə təqdim edildiyi hallarda içində PİN-kod olan qapalı zərfi özü və yaxud səlahiyyətli nümayəndəsi vasitəsilə Bankın təqdim etdiyi müvafiq sənədlərə imza etməklə qəbul etməlidir.

5.36. PİN-kod Kart İstifadəçisi tərəfindən gizli saxlanılmalı, habelə POS-terminaldan istifadə zamanı PİN-kodu daxil edərkən digər şəxslərin PİN-kodu görməməsi təmin edilməli, SMS vasitəsilə göndərilmiş PİN-kod Telefondan silinməli, PİN-kod qapalı zərfdə təqdim edildiyi

təqdirdə PİN-kod olan zərf Kart ilə bir yerdə saxlanılmamalı, on-line Əməliyyatlar həyata keçirən zamanı PİN-kod daxil edilməməlidir.

5.37. Kart İstifadəçisi tərəfindən PİN-kod ardıcıl olaraq 3 (üç) dəfə səhv daxil edildikdə, Müştərinin müraciəti və ya dövlət orqanlarının Qanunvericiliyə uyğun tələb(lər)i olduqda Bank Kartı bloklaşdırır.

5.38. Bankdan Kartı alarkən onun arxa tərəfində imza zolağında Kart İstifadəçisi öz imzasını qeyd etməlidir. Həmin imzanın olmaması və ya onun qəbz üzərindəki imzaya uyğun olmaması Kartın ödəniş üçün qəbulundan imtina üçün əsasdır.

5.39. Kartdan istifadə etməklə Əməliyyatlar qəbz üzərində Kart İstifadəçisinin imzası və ya PİN-kodun daxil edilməsi ilə aparılır. Bu zaman Kart İstifadəçisi həmin sənəddə Kartın nömrəsinin və Əməliyyat Tarixinin, Əməliyyat məbləğinin və valyutanın düzgün qeyd olunmasını yoxlamalıdır.

5.40. Kart olmadan Əməliyyatlar onun nömrəsi, son istifadə tarixi, CVV2 (CVC) kodu vasitəsilə aparılır.

5.41. Kart İstifadəçisi Kartla aparılmış Əməliyyat(lar)ın qəbzlərinin 120 (bir yüz iyirmi) gün ərzində saxlanılmasını təmin etməlidir. Mütəmadi olaraq, əldə olunan qəbz Bankın verdiyi Kart Hesabından çıxarış ilə tutuşdurulmalıdır. Uyğunsuzluq aşkar edildikdə Bank dərhal bu haqda məlumatlandırılmalıdır.

5.42. Kart İstifadəçisi müraciət etdikdə ən geci 2 (iki) İş Günü ərzində Kart üzrə Hesabdan Çıxarış verilir.

5.43. Kart üzrə Hesabdan Çıxarışda göstərilmiş Əməliyyatlar üzrə etirazı olduğu halda Müştəri Əməliyyatın həyata keçirildiyi tarixdən 45 (qırx beş) təqvim günündən gec olmayaraq istinad etdiyi halları təsdiq edən sənədləri də əlavə etməklə yazılı şəkildə Banka müraciət etməlidir. Müştəri bunu etmədikdə həyata keçirilmiş Əməliyyatların düzgünlüyü Müştəri tərəfindən təsdiq olunmuş hesab edilir və sonradan həmin Əməliyyatlar üzrə daxil olmuş iddialara baxılmır.

5.44. Müştərinin müraciətindən sonra 60 (altmış) İş Günü ərzində mübahisəli Əməliyyatların araşdırılması və araşdırmanın nəticəsi haqqında Bank ona məlumat təqdim edir.

5.45. Kartdan istifadə zamanı yaranan problemlərin həll edilməsi üçün Kartın arxa tərəfində əks olunan əlaqə nömrələri ilə əlaqə saxlanılmalıdır. Bu məqsədlə həmin əlaqə nömrələri yadda saxlanılmalıdır. Müştəri Kartın itməsinin, oğurlanmasının və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir.

5.46. Bank Müştəri tərəfindən İnternetdən istifadə etməklə Kart vasitəsilə aparılan Əməliyyatların nəticələrinə görə Müştəri qarşısında heç bir məsuliyyət daşımır.

5.47. Əgər PIN-kod beynəlxalq kart təşkilatları tətbiq edilən regionda və ya ölkədə üstünlük verilən və ya tələb edilən CVM-dirsə (card verification method – kartın müştəriyə aid olub-olmamasını yoxlama vasitələri) Müştəri/Kart İstifadəçisi Çip/PIN əməliyyatlarını dəstəkləmək qabiliyyətinə malik olmadıqda beynəlxalq kart təşkilatları əməliyyatlarında saxtakarlıqla nəticələnən itirilmiş, oğurlanmış və ya heç vaxt qəbul edilməmiş Kart üçün həmin Müştəri məsuliyyət daşıyır.

5.48. Müştəri, Kartdan qanunsuz istifadənin qarşısını almaq üçün təsdiqedici sənədlərə əsasən Bankın çəkdiyi xərclərin əvəzini Banka ödəməlidir.

5.49. Bank Kartın itirilməsi, oğurlanması və (və ya) Kart İstifadəçisinin iradəsinə zidd olaraq digər vasitələrlə onun sahibliyindən çıxması barədə Müştəri tərəfindən xəbərdar olunduqdan dərhal sonra Kartı bloklaşdırır.

5.50. Kart itirildikdə, oğurlandıqda və Kart İstifadəçisinin iradəsinə zidd olaraq digər vasitələrlə onun sahibliyindən çıxdıqda Müştəri bu barədə dərhal, lakin 24 (iyirmi dörd) saatdan gec

olmayaraq (012) 4312202, *8893 telefon nömrələri vasitəsilə Bankın xidmət mərkəzini məlumatlandırmalıdır. Bundan sonra 10 (on) gün ərzində Müştəri Kartı Stop-listə daxil etdirmək üçün Banka bu barədə yazılı müraciət etməlidir.

5.51. Müştəri tərəfindən Stop-listə daxil edilməsi üçün müraciət edilməmiş və ya vaxtında müraciət edilməmiş, itirilmiş, oğurlanmış Kartdan istifadə etməklə aparılmış Əməliyyatlara görə Müştəri məsuliyyət daşıyır.

5.52. Kartın itirildiyi, oğurlandığı və ya Müştərinin iradəsinə zidd olaraq digər vasitələrlə onun və ya Kart İstifadəçisinin sahibliyindən çıxdığı andan bu barədə yazılı (kağız və ya elektron) məlumatın Müştəri tərəfindən Banka verilməsinə qədər olan müddətdə Kartdan istifadə etməklə aparılmış Əməliyyatlara görə Bank məsuliyyət daşımır.

5.53. İstifadə edilmiş və ya oğurlanmış Kart Stop-listə daxil edildikdən sonra həmin Kartdan istifadə edilməklə aparılmış Əməliyyatlara görə Bank məsuliyyət daşıyır.

5.54. Bank Skimminqə görə məsuliyyət daşımır.

5.55. İtirilmiş PİN-kod bərpa edilmir. PİN-kod itirildikdə Müştəri bu səbəbdən yeni Kartın Emissiyası üçün Banka yazılı müraciət etməlidir.

5.56. Kartdan istifadə etməklə Əməliyyatların aparılmasına yaranmış hər hansı problem Bankın nəzarət sahəsindən kənarda olan və onun sərəncamında olmayan məlumat-informasiya sistemlərinin fəaliyyəti və həmin sistemlərdə yaranan texniki nasazlıqlar ilə əlaqəlidirsə, Bank həmin problemlərə görə Müştəri qarşısında məsuliyyət daşımır. Bu əsasla mübahisə yarandıqda Kartdan istifadə etməklə Əməliyyatların aparılmasında yaranmış problemin Bankın nəzarət sahəsində olan fəaliyyətlə əlaqəli olduğu sübuta yetirilməyənədək həmin problemə görə Bankın məsuliyyəti istisna olunur.

5.57. Digər bank və təşkilatların Kart İstifadəçisinə Kartdan istifadə etməklə Əməliyyatların aparılmasından imtina etməsinə görə Bank məsuliyyət daşımır.

5.58. Bank səbəb göstərmədən, Kart İstifadəçisindən Kartın geri qaytarılmasını tələb edə, Kartdan Kart İstifadəçisinin iradəsi əleyhinə, qanunazidd məqsədlərlə və Qanunvericiliklə nəzərdə tutulmamış qaydada istifadə edildiyini ehtimal etdikdə Kartı Müştəriyə və ya Kart İstifadəçisinə əvvəlcədən məlumat vermədən birtərəfli qaydada bloklaşdıra bilər.

5.59. Müştəri Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilə üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda +994124935058 nömrəli telefon və ya +99412966 qaynar xətti vasitəsilə ödəniş sistemləri üzərində nəzarət funksiyası həyata keçirən Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət edə bilər.

5.60. Bütün Əlavə Kartlardan istifadə etməklə aparılmış Əməliyyatlara görə məsuliyyəti Müştəri özü daşıyır.

5.61. Müştəri Əlavə Kartlar üzrə istifadə limitini müstəqil qaydada müəyyən edir.

5.62. Müştəri Kart İstifadəçi(lər)sini Ümumi Şərtlərin 5-ci hissəsində nəzərdə tutulmuş şərtlərlə tanış etməyi öz öhdəsinə götürür.

5.63. Kart Hesabı Müştəri tərəfindən onun kağız daşıyıcıda olan yazılı və ya elektron ərizəsi əsasında ləğv edilir, bir şərtlə ki, hazırki Ümumi Şərtlərin 5.10-5.13-cü və 5.18-5.20-ci bəndlərində nəzərdə tutulmuş öhdəlikləri tam icra etmiş olsun.

5.64. Kart Hesabı Müqaviləsi aşağıdakı hallarda Bank tərəfindən birtərəfli qaydada ləğv edilir:

5.61.1. Kartdan qeyri-leqal məqsədlər üçün istifadə edilməsi şübhəsi olduqda;

5.61.2. Kart Hesabında 6 (altı) ay ərzində pul vəsaiti olmadıqda və ya Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilənin 5.21-ci bəndinə uyğun olaraq Emissiya edilmiş bütün Kartlar ləğv edildikdə;

5.61.3. Son 1 (bir) il ərzində Kart Hesabı üzrə Əməliyyatlar aparılmadıqda;

5.61.4. Qanunvericiliklə və bu Müqavilənin Cari Hesab bölməsində Cari Hesab Müqaviləsinin ləğvi əsası kimi müəyyən edilmiş digər hallarda və qaydada.

5.65. Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilənin ləğv edilməsi həmin Müqaviləyə əsasən açılmış Kart Hesabı və Emissiya edilmiş Kartların ləğvi üçün əsasdır.

5.66. Karta dair Xidmətlərin Göstərilməsi haqqında Müqavilənin müddəti bitdikdən və ya o ləğv edildikdən sonra 30 (otuz) İş Günü ərzində Kart Hesabında olan vəsaitin qalığı zəruri xərclər və yaranmış borclar çıxıldıqdan sonra Müştəriyə qaytarılır.

5.67. Kartlara dair ayrı qayda nəzərdə tutulmamışdırsa, hazırki Ümumi Şərtlərin Cari Hesaba, o cümlədən məsafədən Cari Hesab açılmasına dair müəyyən olunmuş qaydaları Kart Hesabı üzrə Bank ilə Müştərinin münasibətlərinə də tətbiq olunur.

## 6. ƏMANƏT HESABI

6.1. Əmanətin məbləği, Əmanətin Faiz dərəcəsi, Əmanətin Müddəti, Əmanətin daxil olduğu məhsul növü və Əmanət Hesabı Müqaviləsinin digər xüsusi (mühüm) şərtləri müvafiq Ərizədə qeyd olunur.

6.2. Bank Müştəridən Əmanəti qəbul edir və Müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada Əmanəti Müştəriyə qaytarmağı və onun üçün Əmanət Faizi ödəməyi öhdəsinə götürür. Əmanət onun spesifik və eksklüziv istifadəsi üçün açılmış Əmanət Hesabında saxlanılacaq.

6.3. Üçüncü şəxsin xeyrinə Əmanətlər istisna olmaqla, müvafiq Ərizə əsasında Əmanət Cari Hesabdan avtomatik olaraq Əmanət Hesabına köçürülür.

6.4. Əlverişli Əmanət istisna olmaqla, Əmanət Əmanətin Açılma Tarixindən Bitmə Tarixinədək müddətə yerləşdirilir. Əlverişli Əmanət qeyri-müəyyən müddətə yerləşdirilir.

6.5. Bitmə Tarixində Bank:

6.5.1. Müştəri tərəfindən «Bərpa olunmayan» Prolonqasiya Seçimi seçilmiş olarsa, Əmanəti və Əmanətin Faizini Cari Hesaba köçürür;

6.5.2. Əgər Müştəri tərəfindən «Avtomatik bərpa» Prolonqasiya Seçimi seçilmiş olarsa, Əmanətin Faizini Cari Hesaba köçürür və Əmanətin Müddəti avtomatik olaraq eyni müddətə qədər uzadılır. Bu halda Əmanətə Bitmə Tarixində Müddətli Əmanətlər üçün Bankın qüvvədə olan faiz dərəcələri və digər bütün şərtləri tətbiq olunacaq. Bitmə Tarixi qeyri-İş Gününə təsadüf edərsə, Bitmə Tarixi ondan sonra gələn ilk İş Günü hesab olunacaq və növbəti Əmanət Müddəti üçün Əmanətin Açılma Tarixi həmin İş Günündən hesablanacaq.

6.6. Bank öz mülahizəsinə əsasən Ümumi Şərtlərin 6.5.2-ci bəndində nəzərdə tutulmuş prolonqasiyadan imtina edə və Əmanəti Əmanət Hesabı Müqaviləsinin müddəalarına uyğun olaraq geri qaytara bilər.

6.7. Bank Əmanətin qaytarılmasına bütün aktivləri ilə və Qanunvericilikdə nəzərdə tutulmuş başqa üsullarla təminat verir.

6.8. Bank Əmanətin Əmanət Hesabında saxlandığı faktiki təqvim günlərinin sayına görə Əmanətin Faiz Dərəcəsi əsasında Əmanət Faizi ödəyəcək.

6.9. Hər bir təqvim günü üçün Əmanətin Faizi Əmanətin Faiz Dərəcəsinin 1/360 kimi hesablanacaq. Əmanət vaxtından əvvəl götürülərsə, Ümumi Şərtlərin 6.10-cu bəndinin müddəaları əsas götürüləcək.

6.10. Əmanətin Faizi Əmanətin Açılma Tarixinin ertəsi günündən başlayaraq Bitmə Tarixinədək və ya Əmanətin çıxarıldığı/silindiyi gündən əvvəlki günədək hesablanır və müvafiq Ərizəyə uyğun olaraq Müştəriyə ödənilir.

6.11. Müştəri istədiyi an Əmanəti vaxtından əvvəl tələb edə bilər.

6.12. Əmanətin Faizinin Müştərinin tələbi ilə vaxtından əvvəl ödənilməsi qaydası və həcmi müvafiq Ərizəyə uyğun olaraq müəyyən edilir.

6.13. Müştəri Bitmə Tarixindən bir gün əvvəl və ya Əmanəti götürdüyü gün Əmanəti və Əmanətin Faizini digər hesaba köçürmək üçün Banka göstəriş verə bilər.

6.14. Qanunvericiliyə əsasən Bank tərəfindən ödənilən Əmanətin Faizindən ödəniş mənbəyində vergi tutulması nəzərdə tutulubsa, Əmanətin Faizi ödənilərkən Qanunvericiliklə müəyyən olunmuş faiz dərəcəsi ilə vergi tutulacaq.

6.15. Bank Müştərinin ilk tələbi ilə Əmanət məbləğinin ən azı 25 (iyirmi beş) faizini dərhal, qalan hissəsini isə ən geci 5 (beş) bank günü müddətində Cari Hesaba köçürəcək.

6.16. Bank, Müştərinin Bankda olan istənilən hesabındakı pul vəsaiti özünün və ya üçüncü şəxslərin öhdəliklərinin icrasını təmin etmək məqsədilə girov qoyulduqda və həmin öhdəliklər vaxtında və lazımi qaydada icra edilmədikdə yaranmış borc məbləğində vəsaiti Müştərinin istənilən hesabından birtərəfli qaydada öz xeyrinə silmək hüququna malikdir.

6.17. Qanunvericiliyə müvafiq olaraq məcburi icra orqanlarının inkasso sərəncamlarına, vergi və gömrük orqanlarının sərəncamlarına, bu Şərtlərin 6.15 və 6.16-cı bəndlərinə uyğun olaraq vəsait Əmanət Hesabından silinməli olduqda, həmçinin Bankın və Müştərinin iradəsindən asılı olmayaraq vəsaitin silinməsini labüd edən bütün digər hallara əsasən silinməli olan pul vəsaiti Əmanət Hesabından Müştərinin Cari Hesabına köçürülür və həmin hesabdan silinir. Bu halda Əlverişli Əmanət istisna olmaqla, Əmanət Hesabı Müqaviləsi vaxtından əvvəl ləğv edilir. Əlverişli Əmanət üzrə Əmanət Hesabından silinməli olan pul vəsaiti bilavasitə həmin Əmanət Hesabından da silinə bilər.

6.18. Müştəri tərəfindən onun Banka əvvəllər təqdim etdiyi məlumatlarla bağlı olan bütün dəyişiklər haqqında dəyişikliyin edildiyi gün dərhal Banka məlumatın verilməməsi, Sığorta Hadisəsi zamanı Müştərinin kompensasiya ödənilməsi üçün müraciət ərizəsinə daha uzun müddət baxılmasına və Müştərinin eyniləşdirilməsinin mümkün olmaması hallarında isə kompensasiyanın ödənilməsindən imtina edilməsi üçün əsas ola bilər. Bank Müştəriyə əvvəllər təqdim etdiyi məlumatlarla bağlı olan bütün dəyişikliklər haqqında məlumat verməlidir.

6.19. Əmanət Hesabı Müqaviləsi Əmanət Müştəriyə tam qaytarıldıqdan sonra ləğv edilir. Əmanət Hesabı Müqaviləsinin ləğvi Əmanət Hesabının ləğvi üçün əsasdır.

6.20. Əmanət Hesabında Minimal hesab qalığının mövcud olmaması Əlverişli Əmanət üzrə Əmanət Hesabı Müqaviləsinin Bank tərəfindən birtərəfli qaydada ləğvi üçün əsasdır.

6.21. Əmanət Hesabının sahiblərinin sayı 1 (bir) nəfərdən artıq olduğu təqdirdə Əmanət Hesabı Müqaviləsinin ləğv edilməsi, habelə Əmanətin vaxtından əvvəl çıxarılması üçün həmin hesabın bütün sahiblərinin razılığı olmalıdır.

6.22. Əmanət Hesabına dair ayrı qayda nəzərdə tutulmamışdırsa, Ümumi Şərtlərin Cari Hesaba, habelə məsafədən Cari Hesab açılmasına dair müəyyən olunmuş qaydaları Əmanət Hesabı üzrə Bank ilə Müştərinin münasibətlərinə də tətbiq olunur.

## 7. KREDİT

7.1. Ümumi Şərtlərin 7.4-cü və 7.5-ci bəndləri nəzərə alınmaqla Kreditin valyutası, məbləği, Kreditin Faiz Dərəcəsi, Kreditin Müddəti və məqsədli təyinatına dair şərtlər, eyni zamanda Girov Predmeti barədə məlumatlar müvafiq Ərizədə qeyd olunur.

7.2. Aşağıda göstərilən şərtlər mövcud olarsa, Bank Krediti fiziki şəxs olan Müştəriyə verəcəkdir:

7.2.1. Müştərinin Bankda Kredit və Girov barədə qarışıq Müqavilədən irəli gələn öhdəliklərinin icrasını girov qismində təmin edəcək Əmanəti mövcuddur;
7.2.2. Girov Predmeti üçüncü şəxslərin tələbləri üçün yüklü deyil;
7.2.3. Müştəri onun əmlakı üçün təhlükə yarada bilən heç bir məhkəmə araşdırmasına cəlb edilməmişdir.
7.3. Bank Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Krediti Kredit və Girov barədə qarışıq Müqavilə rəsmiləşdirildikdən və Komisyon Haqqı ödənildikdən sonra 1 (bir) İş Günü ərzində Müştərinin müvafiq Ərizədə göstərdiyi Cari Hesabına köçürməyi öhdəsinə götürür. Kreditin həmin Cari Hesaba köçürüldüyü tarix Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Kreditin verilmə tarixi hesab edilir və həmin gündən etibarən Kredit Faizlərinin hesablanması başlayır.
7.4. Müştəri Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Ərizəni Banka təqdim etməklə eyni zamanda Kredit Limiti çərçivəsində ilk Kredit sifarişini də verir. İlk Kredit sifarişi üçün Banka Telefondan SMS göndərilməsi, myAccess üzərindən və ya digər telekommunikasiya vasitələri ilə müraciət edilməsi tələb olunmur. Müştəri Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə növbəti Kredit sifariş(lər)ini hər dəfə tələb olunan Kredit Məbləğini, Kreditin Faiz Dərəcəsini və Kredit Müddətini öz seçimindən asılı olaraq Bankın müvafiq Ərizə ilə müəyyənləşdirilmiş mobil telefon nömrəsi üzrə Banka Telefondan SMS göndərməklə, Elektron Sifariş və ya digər telekommunikasiya vasitəsiləri ilə müraciət etməklə, habelə kağız daşıyıcıda bilavasitə təqdim etməklə verə bilər.
7.5. Bank Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kredit Limiti çərçivəsində hər Kredit sifarişini aldıqdan sonra ən geci 10 (on) İş Günü ərzində həmin Kredit sifarişini aksept edə, Yeni Oferta verə və yaxud Kredit sifarişindən imtina edə bilər:
7.5.1. Bank Müştərinin Kredit sifarişini aksept etdiyi təqdirdə özünün təklif etdiyi Kredit Məbləğini, Kredit Faizini (o cümlədən FİFD-i) və Kredit Müddətini, bu Şərtlərin 7.9-cu bəndinə əsasən hesablanmış aylıq ödəniş məbləğini və ödəniş gününü Telefona SMS göndərməklə və ya myAccess vasitəsilə Müştəriyə təqdim etməklə bu barədə Müştəriyə məlumat verir.
7.5.2. Bank Krediti Müştərinin Kredit sifarişində nəzərdə tutulandan fərqli şərtlərlə verməyə razılıq verdiyi təqdirdə Müştəriyə özünün təklif etdiyi Kredit Məbləğini, Kredit Faizini (o cümlədən FİFD-i) və Kredit Müddətini, bu Şərtlərin 7.9-cu bəndinə əsasən hesablanmış aylıq ödəniş məbləğini və ödəniş gününü Telefona SMS göndərməklə və ya myAccess vasitəsilə təqdim etməklə Yeni Oferta verir. Müştəri Yeni Oferta ilə razı olduğu təqdirdə Bank tərəfindən Telefona SMS göndərildikdən və ya myAccess vasitəsilə məlumat təqdim edildikdən sonra 3 (üç) iş günü ərzində Bankın Ərizədə qeyd olunan telefon nömrəsinə SMS göndərməklə və ya myAccess vasitəsilə Krediti Yeni Ofertadakı şərtlərlə aksept edə bilər. Müştəri qeyd edilən müddətdə Yeni Ofertanı aksept etmədiyi təqdirdə o, müvafiq kredit sifarişindən imtina etmiş hesab olunur.
7.5.3. Bank Kreditin verilməsindən imtina etdiyi təqdirdə Telefona SMS göndərməklə və ya myAccess vasitəsilə Müştəriyə bu barədə məlumat verir.
7.6. Kreditin Ərizədə razılaşdırılmış Kart Hesabına və ya Cari Hesaba köçürüldüyü tarix Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kreditin verilmə tarixi hesab edilir və həmin gündən etibarən bu Şərtlərin 7.9-cu bəndi ilə razılaşdırılmış qaydada Kredit Faizlərinin hesablanması başlayır.
7.7. Müştəri Kredit və Girov barədə qarışıq Müqavilə üzrə Krediti və Kredit Faizini Ödəniş Planına uyğun olaraq Banka qaytarmağı öz öhdəsinə götürür.
7.8. Müştəri Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Krediti və Kredit Faizini Kredit verildikdən sonra hər 30 (otuz) təqvim günündə bir dəfə olmaqla Ərizədə razılaşdırılmış Cari Hesab vasitəsilə Banka qaytarmağı öz öhdəsinə götürür.

7.9. Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə Kredit Faizi aşağıdakı düstur əsasında hesablanır:

$$A = K_0 \frac{i(1+i)^n}{(1 + i)n - 1}$$

$K_0$ = Kredit məbləği
A= bir dövrə görə aylıq ödəniş (annuitet məbləği)
n= Kredit Müddəti (Dövrlərin /ödənişlərin sayı)
i= Kreditin Faiz Dərəcəsi (bir dövrə görə, yüzdə bir hissə)

7.10. Kreditin verilməsi üçün ödənilməli olan Komisyon Haqqın məbləği Tariflərə əsasən müəyyən edilir.

7.11. Kredit Faizi, qaytarılmalı Kredit məbləği üzrə hər gün üçün Bank tərəfindən Kreditin verildiyi tarixdən onun tam qaytarılmasınadək hesablanır. Bir gün üçün Kredit Faizi Kreditin Faiz Dərəcəsinin 1/30 hissəsi kimi hesablanır.

7.12. Faktiki İllik Faiz Dərəcəsi ("FİFD") Azərbaycan Respublikası maliyyə bazarları tənzimləyicisi tərəfindən müəyyən olunmuş hesablama metodologiyası (bax: "Banklarda kredit risklərinin idarə edilməsi Qaydaları"na Əlavə 2 - http://www.e-qanun.az/framework/41442 ) əsasında müəyyən olunur. Kredit və Girov barədə qarışıq Müqavilə üzrə FİFD müvafiq Ərizədə, Pərakəndə (nağd) kredit barədə Müqavilə üzrə isə FİFD-in maksimum dərəcəsi (maksimum FİFD) Ərizədə və hər Kredit sifarişi üzrə dərəcəsi Telefona göndərilən SMS-də nəzərdə tutulur.

7.13. Ödəniş günü İş Gününə təsadüf etmədikdə, ödəniş növbəti İş Günü həyata keçirilir.

7.14. Müştəridən daxil olan vəsait hesabına əvvəl xərclər, cərimə, Kredit Faizi və nəhayət Kreditin qalıq məbləği silinir.

7.15. Kredit vaxtından əvvəl tam qaytarıldıqda Müştəri aşağıdakı məbləğlərdən daha kiçik olanını Banka ödəyir:

7.15.1. Ödəniş Planında göstərilmiş və ödənilməmiş bütün Kredit Faizləri və ya;

7.15.2. vaxtından əvvəl ödənişin edildiyi tarixə olan Kredit qalığı üzrə iki aylıq Kredit Faizi.

7.16. Bankın səlahiyyətli nümayəndələri Kreditin monitorinqi məqsədilə və Müştərinin Kreditdən necə istifadə etdiyini, onun maliyyə vəziyyətini yoxlamaq üçün İş Günlərində saat 20-00-dək istənilən vaxt Müştərinin iş yerinə və yaşayış sahəsinə gedə bilər.

7.17. Müştəri Kredit və Girov barədə qarışıq Müqavilədən irəli gələn Girov Predmeti ilə təmin edilmiş öhdəliyini vaxtında və lazımi qaydada icra etmədikdə, Bank tutmanı məhkəmədən kənar qaydada Girov Predmetinə yönəldə bilər.

7.18. Kredit üzrə öhdəliklər vaxtında və lazımi qaydada icra edilmədikdə yaranmış borc məbləğində vəsaiti Bank ödəmə tarixlərindən etibarən Müştərinin Bankda olan hesablarından birtərəfli qaydada öz xeyrinə silmək hüququna malikdir.

7.19. Müştəri Bankın tələbi ilə Kredit verildikdən sonrakı 30 (otuz) gün ərzində Kreditdən məqsədli təyinatına uyğun istifadə edilməsini təsdiq edən müvafiq sənədləri Banka təqdim etməyə borcludur.

7.20. Müştəri Krediti və Kredit Faizini vaxtında Banka qaytarmadıqda, hər gecikdirilən gün üçün Kredit qalığının 0.1 (sıfır tam onda bir) faizi məbləğində cərimə ödəyir.

7.21. Müştəri Kredit və Girov barədə qarışıq Müqavilənin və ya Pərakəndə (nağd) kredit barədə Müqavilənin qüvvədə olduğu müddət ərzində istənilən vaxt Bankın tələbi ilə öz fəaliyyəti, maliyyə vəziyyəti və Kreditin qaytarılma perspektivləri haqqında Banka məlumat verməlidir.

7.22. Müştəri Krediti qaytarma imkanında baş verən hər hansı bir dəyişiklik barədə dərhal Banka məlumat verməlidir.

7.23. Müştəri Kreditdən ətraf mühitlə bağlı Bankın istisna etdiyi fəaliyyət növləri üçün istifadə etməməyi öhdəsinə götürür.

7.24. Müştəri Kreditdən necə istifadə olunması, Müştərinin şəxsi və təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqi məqsədilə gəlmiş Bankın səlahiyyətli nümayəndələrinin vəzifələrini yerinə yetirməsinə şərait yaratmalıdır.

7.25. Xarici valyutada verilmiş Kredit üzrə ödənişləri Müştəri Valyuta Məzənnəsinin artmasından və ya azalmasından asılı olmayaraq həmin xarici valyutada da Banka etməlidir. Valyutanın Məzənnəsinin artması və ya azalması şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi hesab edilmir.

7.26. Kredit və Girov barədə qarışıq Müqavilənin qüvvədə olduğu müddət ərzində Bankın razılığı olmadan Girov Predmetini üçüncü şəxsə sonradan (təkrar) girov qoya bilməz.

7.27. Girov Predmeti icrası təmin olunmuş öhdəlik üçün istifadə edildikdə Müştəri Girov Predmetini 10 (on) gün ərzində bərpa etməyə borcludur.

7.28. Girov Predmeti Bankın sahibliyinə verilməklə saxlanca qoyulur.

7.29. Müştərinin Bankda olan hesablarından silinən vəsaitin valyutası icra edilməli öhdəliyin valyutasından fərqli olduqda müvafiq mübadilə silinmənin icra edildiyi tarixdə Valyuta Məzənnəsi əsasında həyata keçiriləcək.

7.30. Müştərinin Kredit və Girov barədə qarışıq Müqavilədən irəli gələn öhdəlikləri başqa şəxsə keçirildikdə belə Girov Predmeti yeni borclunun öhdəliyinin icrasını təmin edəcəkdir.

7.31. Girov Müştəri Kredit və Girov barədə qarışıq Müqavilədən irəli gələn öhdəliklərini tam icra edənədək qüvvədədir.

7.32. Bank aşağıdakı hallarda Kredit və Girov barədə qarışıq Müqaviləni və ya Pərakəndə (nağd) kredit barədə Müqaviləni vaxtından əvvəl ləğv etmək və qalan Kredit Məbləğini, Kredit Faizini və bank tərəfindən hesablanmış başqa ödənişləri qaytarmağı Müştəridən tələb etmək hüququna malikdir:

7.32.1. Müştəri Krediti və Kredit Faizini bu Şərtlərə və müvafiq Ərizəyə uyğun olaraq qaytara bilmədikdə;

7.32.2. Müştərinin Kreditdən məqsədli təyinatına uyğun istifadə etmədiyi aşkar edildikdə;

7.32.3. Müştərinin maliyyə vəziyyətində, əmlakında və onun təşkilati-hüquqi formasında Müştərinin Kredit və Girov barədə qarışıq Müqavilənin və ya Pərakəndə (nağd) kredit barədə Müqavilənin şərtlərini yerinə yetirmə qabiliyyətinə mənfi təsir göstərə biləcək hər hansı bir dəyişiklik olduqda və ya bazar şəraitində Müştərinin mövcudluğu üçün əhəmiyyətli təhlükə yaradan dəyişiklik olduqda;

7.32.4. Müştəri tərəfindən Bankı aldatmağa yönəlmiş hər hansı bir hərəkətin edildiyi, iqtisadi imkanları və Kredit və Girov barədə qarışıq Müqavilədən və ya Pərakəndə (nağd) kredit barədə Müqavilədən irəli gələn öhdəliklərin vaxtında və lazımi qaydada icrasına təsir edə biləcək digər faktlar haqqında verdiyi məlumatların və təqdim etdiyi sənədlərin həqiqətə uyğun olmadığı aşkar olduqda;

7.32.5. Müştəri Ümumi Şərtlərin 7.27-ci bəndinə uyğun olaraq Girov Predmetinin bərpasını təmin etmədikdə.

## 8. ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU, BANK VƏ MÜŞTƏRİ

8.1. Bank «30» iyul 2007-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra «Fond») iştirakçısı olaraq (4 saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Müştəridən tutulmur).

8.2. Bank tərəfindən Müştəridən bütün müvafiq valyutalarda qəbul edilmiş Əmanətlər Fond tərəfindən aşağıdakı qaydada sığortalanır:

8.2.1. 02.03.2016-cı il tarixdən etibarən faizləri Fondun Himayəçilik Şurası tərəfindən Əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün Qorunan Əmanətlər məbləğindən asılı olmayaraq 2021-ci il 05 aprel tarixinədək tam sığortalanır.

8.2.2. Hazırki Ümumi Şərtlərin 8.2.1-ci bəndi ilə müəyyən edilmiş müddət bitdikdən sonra sığorta hadisəsi baş verdikdə sığortalanmış əmanətlər üzrə əmanətin 100 faizi həcmində, lakin fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə 20 (iyirmi min) manatdan, digər Qorunan Əmanətlər üzrə isə 100 000 (bir yüz min) manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

8.2.3. "Avtomatik bərpa" Prolonqasiya seçimi tətbiq olunan zaman Əmanətin Faiz Dərəcəsi Fond tərəfindən Qorunan Əmanətlər üzrə müəyyən olunan faiz dərəcəsindən yüksək olarsa, Əmanət Qorunan Əmanət hesab olunmayacaqdır.

8.3. Sığorta Hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitəsilərində Müştəriyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir: AzTV; İctimai TV; Azərbaycan qəzeti; Respublika qəzeti; Xalq qəzeti; AzərTAc informasiya agentliyi; APA informasiya agentliyi.

8.4. Fonddan kompensasiya almaq üçün Müştəri kütləvi informasiya vasitəsilərində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur: 1.Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd; 2. Əmanəti təsdiqləyən sənəd (müvafiq mədaxil qəbzi və ya müvafiq ödəniş tapşırığı, Hesabdan Çıxarış və s.); 3. Əmanət Hesabı Müqaviləsi;

8.5. Ərizənin verildiyi tarixdən etibarən 90 (doxsan) gün müddətində Fond tərəfindən Müştəriyə kompensasiya ödənilməlidir. Müştərinin kompensasiya almaq hüququ istisna hallarda Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

8.6. Aşağıdakı Əmanətlər Qorunan Əmanətlərə aid edilmir:

a) Bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş Əmanətlər;
b) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş Əmanətlər;
c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş Əmanətlər;
ç) üzərinə həbs qoyulmuş Əmanətlər;
d) cəlb edildiyi günə Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilmiş Qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddindən artıq illik faiz dərəcəsi ilə qəbul edilmiş Əmanətlər;
e) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;
ə) fiziki şəxslərin Bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.

8.7. Fond kompensasiyanı milli valyutada olan Əmanət üzrə manatla, ABŞ dollarında olan Əmanət üzrə ABŞ dollarında, AVRO-da olan Əmanət üzrə isə AVRO-da Müştəriyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə Sığorta Hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikasının Mərkəzi Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Fond Əmanət üzrə faizləri Sığorta Hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Müştəriyə ödəyir.

8.8. Müştərinin Bankda, o cümlədən Bankın yerli filiallarında və şöbələrində bir neçə Əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada Əmanətləri olduqda, onlar toplanır və bir Əmanət kimi manatla kompensasiya olunur.

8.9. Sığorta Hadisəsi baş verdiyi günə Müştərinin Bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda Əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla Müştərinin Bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi Qorunan Əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir.

8.10. Bank Müştərinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, Qorunan əmanətlər və kompensasiyalar barədə Müştəriyə məlumat verir.

8.11. Müştəri aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 (IV mərtəbə), əlaqə tel.: (99412) 5966591, 5966592, 5966593; faks: (99412) 5966594; e-poçtu: adif@adif.az; sayt: www.adif.az

## 9. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

9.1. **Bankın vəzifələri:**

9.1.1. Qanunvericiliyə və Müqaviləyə uyğun olaraq Bank Xidmətlərini təmin etmək;

9.1.2. Müştərini Ümumi Şərtlərə, Tariflərə və Valyuta Məzənnəsinə edilən əlavə və dəyişikliklər barədə həmin əlavə və dəyişiklikləri Ümumi Şərtlərdə nəzərdə tutulmuş qaydada Bankın İnternet Səhifəsində yerləşdirməklə, yaxud Müştərinin Telefonuna SMS göndərməklə məlumatlandırmaq;

9.1.3. Müştərinin fərdi məlumatlarını, o cümlədən Bank sirrini Qanunvericilik çərçivəsində qorumaq.

9.2. **Bankın hüquqları:**

9.2.1. Müqavilə(lər)nin bağlanması və icrası üçün Müştəridən əlavə məlumatları və sənədləri tələb etmək;

9.2.2. Müştəri tərəfindən təqdim edilmiş sənədlərdə natamamlıq olduqda və ya həmin sənədlər Qanunvericiliyin tələblərinə zidd olduqda Müqavilənin bağlanmasından, eləcə də Müqavilə çərçivəsində təqdim edilən Bank Xidmətlərinin göstərilməsindən imtina etmək;

9.2.3. Ümumi Şərtləri, Tarifləri və Valyuta Məzənnəsini birtərəfli qaydada dəyişdirə bilər.

9.2.4. Bankın İnternet Səhifəsində yerləşdirdiyi tələb olunan sənədlərin siyahısını dəyişdirmək və həmin siyahıya əlavələr etmək.

9.3. **Müştərinin vəzifələri:**

9.3.1. Müqavilənin bağlanması, o cümlədən həmin Müqavilə çərçivəsində təqdim edilən Bank Xidmətinin göstərilməsi üçün tələb olunan bütün zəruri məlumatları və sənədləri Banka təqdim etmək;

9.3.2. Banka əvvəllər təqdim etdiyi məlumatlarla, eləcə də özünün və vəkalətnamə verdiyi şəxslərin sənədləri ilə bağlı olan bütün dəyişikliklər haqqında dəyişikliyin edildiyi gün dərhal Banka məlumat vermək;

9.3.3. Müştəri faktiki yaşayış ünvanı və ya hüquqi ünvanı, istifadəsində olan Telefon dəyişdiyi zaman Banka məlumat verməlidir. Əks halda, Banka məlum olan rekvizitlər üzrə Bankın Müştəriyə göndərdiyi bildirişlər Müştəri tərəfindən qəbul olunmuş hesab olunacaq;

9.3.4. Ümumi Şərtlər, Tariflər və Valyuta Məzənnəsi ilə Bankın İnternet Səhifəsində tanış olmaq, o cümlədən Bankın Ümumi Şərtlərin 9.1.2-ci bəndində göstərilmiş qaydada məlumatlandırdığı dəyişiklik və əlavələri izləmək;

9.3.5. Tariflər ilə nəzərdə tutulduğu halda Müqavilədə nəzərdə tutulan xidmətlərə görə Banka xidmət haqqını, həmçinin yaranmış bütün borcları ödəmək.

9.4. **Müştərinin hüquqları:**

9.4.1. Ümumi Şərtlər əsasında təqdim olunan Bank Xidmətlərindən birlikdə və ya ayrı-ayrılıqda istifadə etmək;

9.4.2. Müqavilə üzrə hüquqlarının pozulduğunu hesab etdiyi hallarda +994124935058 nömrəli telefon və ya +99412966 qaynar xətti vasitəsilə nəzarət funksiyasını həyata keçirən Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət etmək;

9.4.3. Ümumi Şərtlərə, Tariflərə və ya Valyuta Məzənnəsinə edilmiş əlavə və yaxud dəyişikliklərlə razı olmadığı təqdirdə Müqavilə üzrə öhdəliklərini tam icra etmək şərti ilə Müqaviləni birtərəfli qaydada ləğv etmək və ya müvafiq Bank Xidmətindən imtina etmək .

## 10. FORS-MAJOR

10.1. Tərəflərin iradəsindən asılı olmayan, qabaqcadan nəzərdə tutulması və məntiqə uyğun ehtiyatlılıq şəraitində dəf edilməsi mümkün olmayan qarşısıalınmaz qüvvə (fors-major), yəni konkret dövrün konkret şərtlərində fövqəladə və aradan qaldırıla bilməyən hallarda (epidemiya, epizotiya, sel, zəlzələ, yanğın, daşqın və digər təbii fəlakətlər, elan olunmuş və ya faktiki müharibə, mühasirə, fövqəladə hallar, kütləvi iğtişaşlar, tətil, habelə hökumətin və ya yerli özünüidarəetmə orqanlarının Müqavilə üzrə öhdəliklərin icrasının mümkünsüzlüyünə səbəb olan hərəkətləri və ya qərarları və sair bu kimi hadisələr) baş verdiyi təqdirdə Tərəflər üzərinə götürdükləri öhdəliklərin yerinə yetirilməməsinə görə məsuliyyət daşımırlar. Belə hallar baş verdikdə Tərəflərin öhdəliklərinin icrası fors-major halların təsir göstərdiyi müddətin sonunadək təxirə salınır.

10.2. Müqavilə üzrə öhdəliklərini fors-major hallar səbəbindən yerinə yetirə bilməyən Tərəf digər Tərəfi fors-major halların başlanması, ehtimal edilən qüvvədə olma müddəti və bitməsi haqqında dərhal yazılı surətdə xəbərdar etməlidir. Tərəflərdən heç biri Müqavilə üzrə öhdəliklərinin fors-major şəraiti nəticəsində yerinə yetirilməməsinə görə məsuliyyət daşımır, bu şərtlə ki, həmin Tərəf digər Tərəfə fors-major şəraitinin yarandığı gündən sonra dərhal fors-major şəraitinin yaranması və Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsiri barədə yazılı bildirişi fors-major halların mövcudluğunu təsdiqləyən müvafiq dövlət orqanının sənədi ilə birlikdə göndərsin. Müvafiq bildirişi göndərməyən Tərəf fors-major hallara istinad etmək hüququnu itirir.

10.3. Fors-major hallar və ya onların nəticələrinin təsiri 30 (otuz) təqvim günündən artıq davam etdiyi təqdirdə, Tərəflərdən hər biri, Müqavilə üzrə Tərəflər arasında qarşılıqlı hesablaşmaların aparılması şərti ilə Müqaviləni ləğv edə bilər.

## 11. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

11.1. Müştəri Bankın razılığı olmadığı təqdirdə, Müqavilə üzrə hüquq və vəzifələrini üçüncü şəxslərə ötürə bilməz.

11.2. Müqavilədən irəli gələn öhdəliklərin pozulması və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Qanunvericiliyə və Müqaviləyə əsasən məsuliyyət daşıyırlar və digər Tərəfə dəymiş ziyanı tam qarşılamalıdırlar.

11.3. Zərərçəkmiş Tərəf zərərin vurulmasının həqiqiliyini və həcmini, habelə öhdəliklərin yerinə yetirilməməsi ilə zərərin vurulması faktı arasında mövcud olan səbəbli əlaqəni təsdiq edən müvafiq sübutları qarşı tərəfə təqdim etməlidir.

11.4. Tərəflər onlardan asılı olmayan səbəbdən Müqavilə üzrə öhdəliklərini yerinə yetirməməyə görə və ya lazımi qaydada yerinə yetirməməyə görə məsuliyyət daşımırlar.

11.5. Bank aşağıdakı hallarda Müştəri qarşısında məsuliyyət daşımır:

11.5.1. Müştərinin istifadə etdiyi kompüterin, mobil cihazın və ya proqram təminatının viruslardan və digər zədələrdən qorunmamasına görə;

11.5.2. Müştəri tərəfindən yanlış rekvizitlər ilə aparılmış Əməliyyatlara görə;

11.5.3. Müvəqqəti Şifrə, Şifrə və Birdəfəlik Şifrədən istifadə etməklə Müştərinin bank hesablarına üçüncü şəxslər tərəfindən girişə və aparılmış Əməliyyatlara görə;

11.5.4. Rabitə, yaxud rabitə şəbəkəsi avadanlıqlarının işindəki problem və bunun nəticəsində yaranan itkiyə görə.

11.6. Müqavilədən irəli gələn və ya ona aid olan mübahisələr Qanunvericilik əsasında məhkəmə qaydasında həll edilir.

## 12. ƏLAVƏ VƏ DƏYİŞİKLƏRİN EDİLMƏSİ QAYDASI

12.1. Ümumi Şərtlərə, Tariflərə və Valyuta Məzənnəsinə dair əlavə və yaxud dəyişikliklərin Bankın İnternet Səhifəsində yerləşdirilməsi Müştərinin əlavə və dəyişikliklər barədə məlumatlandırılması anı hesab edilir.

12.2. Ümumi Şərtlərə və Tariflərə dair dəyişikliklər və/və ya əlavələr onlar Bankın İnternet Səhifəsində yerləşdirildikdən 3 (üç) İş günü sonra qüvvəyə minir.

12.3. Valyuta Məzənnəsi Bankın İnternet Səhifəsində yerləşdirildiyi andan qüvvəyə minir.

12.4. Ümumi Şərtlərə, Tariflərə və Valyuta Məzənnəsinə dair dəyişikliklər və /və ya əlavələr qüvvəyə mindikdən sonra Müştəri Bank Xidmətindən istifadə etdiyi təqdirdə müvafiq əlavə və dəyişiklikləri qəbul etmiş hesab ediləcək.

## 13. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ LƏĞV EDİLMƏSİ

13.1. Müştəri Aksepti aldığı tarixdə Müqavilə qüvvəyə minir və Ərizədə başqa qayda nəzərdə tutulmadığı halda Müqavilə qeyri-müəyyən müddətə qüvvədə olacaq.

13.2. Müqavilə Tərəflərin yazılı şəkildə ifadə olunmuş qarşılıqlı razılığı ilə vaxtından əvvəl ləğv edilə bilər.

13.3. Müqaviləni birtərəfli qaydada ləğv etmək niyyətində olan Müştəri onun ləğv edilməsi ehtimal olunan tarixə ən azı 30 (otuz) İş Günü qalmış digər Tərəfə niyyətini əks etdirən yazılı məlumat təqdim etməklə və qarşılıqlı hesablaşmaların aparılması şərti ilə həmin müqaviləni birtərəfli qaydada ləğv edə bilər.

13.4. Müqavilənin ləğv edilməsi Tərəfləri həmin Müqavilənin qüvvədə olduğu müddət ərzində Müqavilə şərtlərinin pozulmasına və ya lazımi qaydada yerinə yetirilməməsinə görə məsuliyyətdən azad etmir.

## 14. YEKUN MÜDDƏALAR

14.1. Ümumi Şərtlərin hər hansı bir hissəsinin etibarsızlığı Müqavilənin etibarsızlığına səbəb olmur.

14.2. Tərəflər Ərizədə Ümumi Şərtlərdən fərqli qayda(lar) müəyyən etdikdə Ərizədə razılaşdırılmış həmin qayda(lar) Ümumi Şərtlərin müvafiq bənd(lər)indən üstün qüvvəyə malik olacaq.

**Evgenia Gashikulina**
**İdarə Heyətinin Sədrinin birinci müavini**
**İdarə Heyətinin Sədri vəzifəsini icra edən**